RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 135 (8451) ÇƏRŞƏNBƏ AXŞAMI, 14 iyul 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alındı, adekvat cavab verildi

## Ali Baş Komandan İlham ƏLİYEV: “Azərbaycan öz prinsipial mövqeyindən bir addım da geri atmayacaq”

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı iclasda çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

-Dünən günorta saatlarında Ermənistan Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində növbəti hərbi təxribat törədib. Birinci dəfə deyil ki, dövlət sərhədində Ermənistan tərəfindən hərbi təxribatlar törədilir. Son bir neçə ay ərzində bu hərbi təxribatlar nəticəsində bizim hərbçilərimiz, eyni zamanda mülki şəxslər həlak olmuşdur. Dünən günorta saatlarında onların növbəti təxribatı nəticəsində bir neçə hərbçimiz həlak olmuşdur. Qəflətən bizim hərbi postumuza artilleriya atəşi açılıb və bu çirkin əməl nəticəsində hərbçilərimiz həlak olub və yaralanıb. Allah şəhidlərimizə rəhmət etsin, yaralı hərbçilərimizə Allahdan şəfa diləyirəm.

Deyə bilərəm ki, Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər.

Bu gün sərhəddə gərgin vəziyyət davam edir. Dünən gecə bütün aidiyyəti qurumlarla, komandanlarla əlaqədə idim. Bu gün səhər tezdən də mənə operativ məlumat verilib və sərhəddə vəziyyət sabitləşməyib. Bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Çünki məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq.

Bu çirkin əməllərə əl atmaq onların təcavüzkar siyasətinin təzahürüdür. Bu siyasəti məntiqlə izah etmək mümkün deyil. Çünki bu siyasət olduqca ziddiyyətlidir və bu siyasət Ermənistan üçün böyük təhlükə mənbəyidir. Çünki mən dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycan heç vaxt işğal edilmiş torpaqlarının bu vəziyyətdə qalması ilə barışmayacaq, işğalla barışmayacaq və əlindən gələni edəcək ki, öz ərazi bütövlüyünü bərpa etsin.

Beynəlxalq təşkilatlara müvafiq müraciətlər edilib və operativ vəziyyət imkan verən kimi biz Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin hərbi nümayəndələrini həmin əraziyə dəvət edəcəyik, onlar öz gözləri ilə vəziyyəti görsünlər. Görsünlər ki, kim bu hərbi təxribatı törədib. Bu hərbi təxribat nəticəsində nələr baş verib və kim vəziyyətin gərginləşməsinə cavabdehlik daşıyır. Bizim işimiz haqq işidir və Azərbaycan öz prinsipial mövqeyindən bir addım geri atmayacaq.

Bildiyiniz kimi, Ermənistanda daxili vəziyyət artıq böhranlı həddə çatıb. Daxili çaxnaşmalar geniş vüsət alıb. Eyni zamanda ölkəmizin son vaxtlar əldə etdiyi beynəlxalq uğurlar onları çox narahat edir və onlarda paxıllıq hissini daha da gücləndirib. Xüsusilə beynəlxalq təşkilatlar çərçivəsində uğurlu fəaliyyətimiz, son müddət ərzində bütün aparıcı beynəlxalq təşkilatlar tərəfindən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı verilmiş açıqlamalar, qəbul edilmiş qərarlar, ölkəmizin ərazi bütövlüyünün dəstəklənməsi, əlbəttə ki, Ermənistanın münaqişə ilə bağlı mövqelərinə çox ciddi zərbə vurubdur.

Ardı 2-ci səh.



## Tarixi dönüşün böyük uğurları

Ümummilli Lider Heydər Əliyev müdrik siyasəti, qətiyyətli iradəsi, əzmkarlığı ilə xalqımızın yaddaşında xilaskar və qurucu lider kimi qalmış, dünyada görkəmli dövlət xadimi kimi tanınmışdır.

Ulu Öndər 1969-cu il iyulun 14-də respublikamıza rəhbərlik etməyə başladıqdan sonra Azərbaycanın inkişafı üçün məqsədyönlü siyasət aparmış, xalqımızı ümummilli məqsədlər ətrafında səfərbər edib qarşısında dayanan vəzifələri layiqincə yerinə yetirmişdir. Həmin dövrdə respublikamızın dinamik inkişafını nəzərdə tutan xeyli sayda sosial-iqtisadi proqramlar hazırlanıb həyata keçirilmişdir. Azərbaycan aqrar respublikadan davamlı inkişaf edən sənaye ölkəsinə çevrilmişdir. İdarəetmə münasibətlərində mütərəqqi yeniliklərin tətbiqi, dövlət vəzifələrinə təyinatda milli kadrlara üstünlük verilməsi respublikamızın hərtərəfli inkişafında böyük əhəmiyyət daşımışdır.

Ardı 3-cü səh.

## Mehriban ƏLİYEVA: “Bizim torpağımız, Vətən uğrunda mübarizəmiz müqəddəsdir”



Bizim işimiz haqq işidir və Allah bizimlədir! Düşmənə layiqli cavab verildi və bu, hər zaman belə olacaqdır!

AZƏRTAC xəbər verir ki, bu sözlər Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində etdiyi paylaşımda yer alıb. Paylaşımda deyilir:

“Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq! Bizim torpağımız, Vətən uğrunda mübarizəmiz müqəddəsdir! Bizim işimiz haqq işidir və Allah bizimlədir! Düşmənə layiqli cavab verildi və bu, hər zaman belə olacaqdır! Biz daha da güclü olmalıyıq və olacağıq, daha sıx birləşəcəyik! Şəhid analarına və atalarına öz dərin kədərimi və hörmətimi bildirirəm. Bu çətin günlərdə Azərbaycan xalqı sizinlədir. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaralı əsgərlərimizə tezliklə şəfa versin! Allah Azərbaycanı və xalqımızı qorusun!”.

## Ermənistanın bu təxribatı bölgədə vəziyyəti daha da gərginləşdirir

İyulun 13-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyasının Xarici İşlər naziri Sergey Lavrov ilə telefonla danışıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Ermənistan silahlı qüvvələrinin iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Azərbaycanın Tovuz rayonu istiqamətində hücum cəhdinin qarşısının alınması, bölgədə davam edən gərginlik barədə rusiyalı həmkarına məlumat verib. O, Ermənistanın bu təxribatının bölgədə vəziyyətin daha da gərginləşməsinə, üçüncü ölkələrin Ermənistan-Azərbaycan münaqişəsinə cəlb edilməsinə xidmət etdiyini bildirib, Ermənistanın gücdən istifadə etmək cəhdinin yolverilməz olduğunu və bu kimi təxribatların bundan sonra da layiqincə cavabının veriləcəyini vurğulayıb.

Telefon söhbəti zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bilavasitə ATƏT-in məşğul olduğu və münaqişənin hər iki tərəfinin bu təşkilatın tamhüquqlu üzvü olduğu qeyd edilib.

Nazir S.Lavrov bölgədə gərginliyin artmasının yolverilməz olduğunu və vəziyyətin nəzarət altına alınmasının vacibliyini qeyd edib.

## Türkiyənin Ədalət və İnkişaf Partiyası: Hər zaman və hər vəziyyətdə Azərbaycanın yanındayıq

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının sözçüsü Ömər Çelik Ermənistanın Tovuz rayonu istiqamətində təxribatına münasibət bildirib.

AZƏRTAC xəbər verir ki, AKP rəsmisi sosial media hesabından etdiyi paylaşımda bildirib ki, Ermənistan təcavüzkarlığının cavabsız qalmayacağına əmin olsun. Ömər Çelik yazır: “Ermənistanın Azərbaycanımıza hücumunu qətiyyətlə pisləyirik. Şəhidlərimizə rəhmət diləyirik. Hər zaman və hər vəziyyətdə Azərbaycanın yanındayıq”.

## Ermənistanın sərhəddə törətdiyi təxribat onun münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutudur

Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə Ermənistan və Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini atəşə tutub.

Azərbaycan Silahlı Qüvvələrinin cavab atəşi və əks-həmlə tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısı alınıb.

Azərbaycan Silahlı Qüvvələri operativ vəziyyətə nəzarət edir. Ermənistan tərəfi hər hansı ərazi əldə etməyə müvəffəq olmayıb.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Hikmət Hacıyev deyib ki, Ermənistan tərəfindən Ermənistan-Azərbaycan sərhədində artilleriya qurğularından istifadə edərək Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə hücum edilməsi təcavüzdür, güc tətbiq etmək aktıdır və növbəti təxribatdır.

Ermənistan-Azərbaycan sərhədində təxribatların qarşısının alınması və gərginliyə səbəb ola biləcək halların aradan qaldırılması üçün Qazax və Tovuz rayonları boyunca Azərbaycan tərəfindən dövlət sərhədinin xeyli hissəsinə Dövlət Sərhəd Xidmətinin bölmələri yerləşdirilib. Bunun əksinə olaraq, Ermənistan tərəfindən iki ölkənin dövlət sərhədinin hərbiləşdirilməsi və qəsdən mülki insanların hədəfə alınması sistematik şəkildə davam etdirilir.

Ermənistan bu kimi hərbi avantüra yolu ilə üzv olduğu hərbi-siyasi təşkilatları Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etməyə, Azərbaycana qarşı törətdiyi işğal və təcavüzün məsuliyyətindən boyun qaçırmağa çalışır. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddətdə davam edən təcavüzü və sərhəddə törətdiyi təxribatlar həm də Ermənistanın üzv olduğu hərbi-siyasi təşkilatın hüquqi sənədlərinə ziddir.

Ardı 2-ci səh.

## Ermənistanın bu yeni təxribatı təcavüz aktıdır

İyulun 13-də Azərbaycan Respublikasının Xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun Rusiya Federasiyasından olan həmsədri İqor Popov və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, İ.Popovu və A.Kaspşiki Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısının alınması və bölgədəki cari vəziyyət barədə məlumatlandıran nazir Elmar Məmmədyarov ciddi narazılığını bildirib, Ermənistanın bu yeni təxribatını təcavüz aktı kimi qiymətləndirib. E.Məmmədyarov Ermənistanın məqsədyönlü şəkildə həyata keçirdiyi bu təxribatın üçüncü ölkələri Ermənistan-Azərbaycan münaqişəsinə cəlb etmək və Ermənistan cəmiyyətinin fikrini daxili problemlərdən yayındırmaq məqsədi güddüyünü qarşı tərəfin diqqətinə çatdırıb.

## Əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, 60, 82 və 120 millimetrlik minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 70 dəfə pozub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

## Düşmən tərəfi yenə də ciddi itkilər verərək geri oturduldu, törətdiyi təxribatlara görə layiqli cəzasını aldı

Yeni Azərbaycan Partiyası Tovuz istiqamətində sərhəd zonasında erməni təxribatı ilə əlaqədar bəyanat yayıb. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: “İyul ayının 12-də Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz rayonu istiqamətində sərhəd xəttində törədilən təxribat bütün Azərbaycan xalqı kimi, Yeni Azərbaycan Partiyasının çoxminli üzvlərinin dərin hiddətinə səbəb olub. Təxribatın Dağlıq Qarabağ bölgəsinə aid olmayan ərazidə baş verməsi onun çirkin mahiyyətindən, erməni tərəfinin təmas xəttində süni gərginlik yaratmaq niyyətindən xəbər verir. Öz ölkəsinin daxilində bütün dayaqlarını itirən Ermənistanın diktatura rejiminin cəbhədə təxribatlar yaratmaqla xalqın qəzəbindən yayınmağa çalışması yeni taktika deyil. Azərbaycanın Silahlı Qüvvələri, qəhrəman əsgərlərimiz səbəblərindən asılı olmayaraq cəbhə xəttində erməni tərəfinin törətdiyi hər bir təxribata həmişə layiqincə cavab verib, ağır zərbələrlə düşməni yerində oturdub. İyul ayının 12-də Tovuz istiqamətində sərhəd xəttində qısamüddətli döyüşlər bunun daha bir əyani nümunəsi oldu. Düşmən tərəfi yenə də ciddi itkilər verərək geri oturduldu, törətdiyi təxribatlara görə layiqli cəzasını aldı.

Tovuz istiqamətində erməni təxribatı üzündən baş verən döyüşlər Azərbaycan Ordusunun döyüş qüdrətinin, mənəvi, psixoloji üstünlüyünün, əsgər və zabitlərimizin qəhrəmanlığının, döyüş şücaətinin yeni nümunəsi sayıla bilər. Silahlı Qüvvələrimiz Ali Baş Komandanımızın müdrik rəhbərliyi altında istənilən erməni təxribatının anındaca qarşısını almağa, torpaqlarımızın hər qarışını qorumağa tam hazır olduğunu bir daha nümayiş etdirdi.

Ardı 2-ci səh.



# Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alındı, adekvat cavab verildi

## Ali Baş Komandan İlham ƏLİYEV: “Azərbaycan öz prinsipial mövqeyindən bir addım da geri atmayacaq”

*Əvvəli 1-ci səh.*

Eyni zamanda mötəbər kürsülərdən müntəzəm olaraq həm münaqişənin tarixi ilə, həm bölgənin tarixi ilə bağlı gətirdiyimiz konkret faktlar, inandırıcı əsaslandırmalar, əlbəttə ki, onların təbliğatını alt-üst edir. Artıq bütün dünya bilir ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bunu təsdiqləyən kifayət qədər sənədlər var və bu sənədləri biz indi geniş beynəlxalq ictimaiyyətə təqdim edirik. Eyni zamanda bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bunu da təsdiqləyən kifayət qədər çox beynəlxalq sənədlər və açıqlamalar var. O cümlədən bu yaxınlarda qondarma “Dağlıq Qarabağ respublikası”nda keçirilmiş qondarma “seçkilər” nəinki heç bir ölkə tərəfindən tanınmadı, hətta bütün aparıcı beynəlxalq təşkilatlar, qonşu ölkələr və bu məsələ ilə məşğul olan ölkələr bu seçkiləri pislədilər. Beləliklə, bir daha ölkəmizin ərazi bütövlüyünə dəstək ifadə olundu, bir daha açıq göstərildi ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir.

Ona görə hazırda Ermənistanda hökm sürən hərcmərclik və vəziyyətin böhran həddinə yaxınlaşması onları bu çirkin əməllərə sövq edibdir. Digər tərəfdən, o da sirr deyil ki, artıq uzun müddətdir ki, Ermənistan münaqişə ilə bağlı öz addımlarında xüsusilə Ermənistan-Azərbaycan dövlət sərhədini misal gətirərək belə bir rəy formalaşdırmaq istəyir ki, guya, Azərbaycan Ermənistan ərazisinə hücumlar edir. Halbuki bu, yalandır. Bütün hücumlar Ermənistan tərəfindən törədilir və bunun kifayət qədər sənədləri var, video-foto sənədləri var. Azərbaycan isə, sadəcə olaraq, bütün təxribatlara adekvat cavab verir. Əgər Ermənistan ərazisindən Azərbaycan mövqelərinə, Azərbaycan kəndlərinə atəş açılırsa, təbii ki, biz adekvat cavab verəcəyik və veririk. Ona görə Ermənistan bütün imkanlardan istifadə edib, eyni zamanda saxta məlumatlar uydurub dövlət sərhədinə xüsusi diqqətin cəlb edilməsi üçün əlindən gələni edir. Dünənki hərbi təxribat bu çirkin siyasətin növbəti təzahürüdür.

Hesab edirəm ki, bu təxribatın digər səbəbi odur ki, son vaxtlar Azərbaycan beynəlxalq arenada çox böyük uğurlara imza atıb. Bizim təşəbbüsümüzlə beynəlxalq təşkilatların zirvə görüşləri keçirilib. Bizim təşəbbüsümüzlə BMT Baş Assambleyasının xüsusi sessiyası baş tutub. Bu təklifi, bu təşəbbüsü 130-dan çox ölkə dəstəkləyib və Ermənistan bu təşəbbüsün əleyhinə çıxıb və bir daha özünü rüsvay edib, bir daha özünü dünyadan təcrid edib. Bu gün dünya gündəliyində birinci yerdə duran COVID ilə bağlı mübarizə məsələsində öz anlaşılmaz mövqeyi ilə bir daha bütün dünyanın diqqətini öz çirkin siyasətinə cəlb edib. Necə ola bilər ki, Azərbaycan bütün dünyanın bu mübarizədə birləşməsini tələb etdiyi bir vaxtda Ermənistan bunun əleyhinə çıxıb.

Ona görə beynəlxalq arenada Ermənistan demək olar ki, bütün dayaqlarını itirməkdədir. Daxili vəziyyət kifayət qədər gərgindir. Vəd olunan dırnaqarası çiçəklənmə, artıq hər kəs tərəfindən başa düşülür ki, bu, xülyadır, bu, yalandır. Əlbəttə ki, dünənki hadisə ilə bağlı Ermənistan rəsmi orqanlarının açıqladığı məlumat yalanın növbəti əlamətidir. Bu məlumatda onlar məsuliyyəti Azərbaycanın üzərinə yıxmaq istəyirlər. Halbuki buna heç bir əsas yoxdur və bir daha demək istəyirəm ki, - bütün müstəqil ekspertlər bunu təsdiq edə bilər, - heç bir əsas olmadan bizim hərbi postumuza artilleriya zərbəsi endirilib. Məhz bunun nəticəsində bizim hərbçilərimiz həlak olub. Onların gücü ona çatır ki, ancaq mülki əhalini atəşə tutsunlar, ya da ki, qəflətən bizim hərbi postumuza atəş açsınlar. Bunu da onlar etdilər və bir daha öz çirkin və məkrli mahiyyətlərini ortaya qoydular.

Mən bir daha demək istəyirəm ki, dünən və bu gecə düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik.

Sonra Təhlükəsizlik Şurasının iclası qapalı rejimdə davam edib.

## Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan və Fransa arasında qarşılıqlı etimada və xoş ənənələrə əsaslanan dostluq və əməkdaşlıq əlaqələrinin daim inkişaf etməsi məmnunluq doğurur. Siyasi, iqtisadi, mədəni, təhsil, müdafiə, yüksək texnologiyalar və digər sahələrdə ölkələrimizin mənafeyi və xalqlarımızın rifahına xidmət edən əlaqələrimizin birgə səylərimizlə bundan sonra da uğurla davam edəcəyinə əminəm. Azərbaycan Fransa ilə ikitərəfli münasibətlərin keyfiyyətcə daha yüksək səviyyəyə qaldırılmasında maraqlıdır.

BMT Təhlükəsizlik Şurasının daimi üzvü və ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın və digər həmsədr ölkələrin qətiyyəti və ədalətli mövqeyi nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətrafındakı yeddi rayonun Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına tezliklə son qoyulacağına, azərbaycanlı məcburi köçkünlərin doğma torpaqlarına qayıdacağına ümid bəsləyirik. Biz münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində ədalətli şəkildə həll olunacağına inanırıq.

Dünyanın COVID-19 pandemiyası ilə üzləşdiyi bu çətin zamanda Azərbaycan xalqının dost Fransa xalqı ilə həmrəy olduğunu bildirmək istəyirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa Respublikasına daim firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2020-ci il*

## Birinci vitse-prezident Mehriban Əliyeva Əməkdar artist Bəhram Bağırzadə ilə telefonla danışıb

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva COVID-19 xəstəliyindən müalicəsi davam edən Əməkdar artist Bəhram Bağırzadə ilə telefonla danışıb.

AZƏRTAC xəbər verir ki, Əməkdar artistə tezliklə sağalmağı arzulayan Mehriban Əliyeva ölkəmizdə COVID-19-la mübarizədə, xəstələrin müalicəsində Azərbaycan həkimlərinin, tibb işçilərinin fədakar əməyini xüsusilə qeyd edib.

Bəhram Bağırzadə onun müalicəsi üçün göstərilən dəstək və səylərə görə Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürünü bildirib. Tezliklə sağalacağına inandığını deyən Bəhram Bağırzadə hər zaman Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyini hiss etdiyini qeyd edib.

Xatırladaq ki, koronavirusa yoluxan və xüsusi rejimli xəstəxanaya yerləşdirilən Bəhram Bağırzadənin vəziyyəti bir müddət ağırlaşmışdı. Aparılan intensiv müalicə nəticəsində Əməkdar artistin səhhətində artıq müsbət dinamika və stabilləşmə qeydə alınıb.

## Düşmən tərəfi yenə də ciddi itkilər verərək geri oturduldu, törətdiyi təxribatlara görə layiqli cəzasını aldı

*Əvvəli 1-ci səh.*

Yeni Azərbaycan Partiyası olaraq qəhrəman Ordumuzla qürur duyduğumuzu, daim onunla bir olduğumuzu bəyan edirik. Ali Baş Komandanımız İlham Əliyev əmin ola bilər ki, rəhbəri olduğu Yeni Azərbaycan Partiyasının hər bir üzvü müsəlləh əsgər kimi onun əmri ilə Vətən yolunda fədakarlıq və qəhrəmanlıq göstərməyə hər an hazırdır. Ali Baş Komandanımızın müdrik rəhbərliyi ilə Silahlı Qüvvələrimizin düşmənin istənilən təxribatına bundan sonra da layiqli cavab verəcəyinə, işğal altında olan torpaqlarımızı azad edəcəyinə, Vətən yolunda həlak olan bütün şəhidlərimizin, o cümlədən Tovuz istiqamətində döyüşlərdə şəhid olmuş baş leytenant Rəşad Mahmudovun, çavuş Vüqar Sadıqovun, baş əsgər Elşad Məmmədovun və əsgər Xəyyam Daşdəmirovun qanını yerdə qoymayacağına dərindən inanırıq.

Qəhrəman Azərbaycan Ordusuna eşq olsun!”

## Ermənistanın sərhəddə törətdiyi təxribat onun münaqişənin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutudur

*Əvvəli 1-ci səh.*



Eyni zamanda bu yolla Ermənistan rəhbərliyi yarıtmaz siyasəti nəticəsində COVID-19-un Ermənistanda geniş yayılması ilə daha da kəskinləşən sosial-iqtisadi problemlər fonunda vəziyyəti gərginləşdirmək və ölkədaxili problemlərdən diqqəti yayındırmağa çalışır.

Ermənistan BMT Nizamnaməsini və digər beynəlxalq hüquqi öhdəliklərini kobud şəkildə pozaraq Azərbaycana qarşı hərbi təcavüz etməklə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal edib. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir.

Ermənistan tərəfindən sərhəddə törədilmiş təxribat rəsmi Yerevanın Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə həllində maraqlı olmamasının növbəti sübutudur.

Dünya birliyi COVID-19-a qarşı mübarizə apardığı halda Ermənistan tərəfindən bu hücum və təxribat əməli törədilib. Bu hal və Ermənistanın davamlı olaraq atəşkəsi pozması bir daha sübut edir ki, Ermənistanın BMT Baş katibinin COVID-19 ilə əlaqədar qlobal atəşkəs təşəbbüsünü dəstəkləməsi riyakarlıqdan başqa bir şey deyil.

Beynəlxalq ictimaiyyəti Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə və sərhəddə törətdiyi təxribat əməllərini kəskin şəkildə qınamağa çağırırıq.

Yaranmış vəziyyətə görə məsuliyyət tam şəkildə Ermənistan rəhbərliyinin üzərinə düşür.

## *Mövlud ÇAVUŞOĞLU:* “Türkiyə və türk milləti olaraq bütün imkanlarımızla qardaş Azərbaycanın yanındayıq”

“Ermənistanın törətdikləri qəbuledilməzdir. Ermənistan ağlını başına yığmalıdır. Azərbaycan yalnız deyil. Biz Türkiyə Respublikası və türk milləti olaraq bütün imkanlarımızla Azərbaycanın yanındayıq”.




AZƏRTAC xəbər verir ki, Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu bu fikirləri “TRT HABER” televiziya kanalında bildirib. Azərbaycanın ərazi bütövlüyünün qorunmasına bütün dəstəyin veriləcəyini vurğulayan nazir deyib: “Azərbaycan işğal olunmuş ərazilərinin azad edilməsi məsələsində hansı həll yolunu seçsə, Azərbaycanı dəstəkləyəcəyik. Bütün imkanlarımızla qardaş Azərbaycanın yanındayıq”.

## Azərbaycanın və Türkiyənin Xarici İşlər nazirləri arasında telefon danışığı olub

İyulun 13-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovun Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.Nazir Elmar Məmmədyarov həmkarına Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində hərbi təxribatının qarşısının alınması və hazırda bölgədə davam edən gərgin vəziyyət barədə məlumat verib. Bölgədəki artan gərginliyin bütün məsuliyyətinin Ermənistanın üzərində olduğunu qeyd edən nazir Elmar Məmmədyarov, ümumiyyətlə, məsələnin kökündə Ermənistanın təcavüzkar siyasəti və bu siyasətin nəticələrinin aradan qaldırılmamasının durduğunu vurğulayıb. O, Türkiyənin ədalətli mövqeyinə və Ermənistanın son təxribatını pisləyən bəyanatına görə təşəkkür ifadə edib.

Nazir Mövlud Çavuşoğlu Azərbaycanın mövqeyinin ədalətli olduğunu, beynəlxalq hüququn prinsiplərinə, o cümlədən BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, BMT TŞ-nin qətnamələrinə əsaslandığını qeyd edib və Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirib.

## *Tovuzun Ermənistan ilə sərhədboyu kəndlərinin sakinləri:* “Doğma torpaqlarımızdan bir addım da olsun geri çəkilməyəcəyik”

İyulun 12-də və 13-də Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini pozaraq təxribatlar törədib, rayonun Ağdam və Dondar Quşçu kəndlərini minaatanlardan və toplardan ağır artilleriya atəşinə tutublar. Lakin rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri ilə düşmən ağır tələfat verərək geri oturdulub.

İyulun 13-ü günün ikinci yarısında Azərbaycan Ordusunun bölmələrinin dəqiq atəşi və gördüyü sərt cəza tədbirləri nəticəsində düşmənin bir neçə hərbi obyekti, texnikası və 20 nəfərdən çox şəxsi heyəti məhv edilib.

AZƏRTAC-ın əməliyyat bölgəsində olan müxbiri xəbər verir ki, düşmənin ötən gündən etibarən iriçaplı minaatanlardan və toplardan aramsız atəşinə baxmayaraq, Tovuz rayonunun Ermənistan ilə sərhədboyu yaşayış məntəqələrinin, o cümlədən Ağdam və Dondar Quşçu kəndlərinin sakinləri rəşadətli ordumuza güvənərək doğma yurdlarını tərk etməyiblər. Bölmələrimizin düşmənə sarsıdıcı zərbələrindən sonra həmin kəndlərdə vəziyyət hazırda sabitləşməyə başlayıb.

Sakinlər müxbirimizlə söhbətlərində ordumuza güvəndiklərini və buna görə də doğma kəndlərini tərk etməyəcəklərini bildiriblər.

Ağdam kənd sakini Elxan Əliyev deyib ki, Ermənistan hərbi birləşmələri bu istiqamətdə atəşkəs rejimini tez-tez pozurlar. Xain düşmənin belə təxribatları nəticəsində kənddəki evlərə, təsərrüfat obyektlərinə ciddi ziyan dəyir. Biz ermənilərin dinc sakinləri hədəfə alan belə çirkin təxribatlarını qəti şəkildə pisləyirik. Bu təxribatlara baxmayaraq, Azərbaycan Ordusunun hərbi qüdrətinə inanan kənd sakinləri yüksək əhvali-ruhiyyədədirlər.

Aprel döyüşlərindən və Günnüt əməliyyatından sonra Ermənistan ilə sərhədboyu kəndlərin sakinlərinin ordumuzun gücünə daha da çox inandıqlarını qeyd edən Rasim Məmmədov diqqətə çatdırıb ki, iyulun 12-də və 13-də düşmən təxribatlarının qarşısını qətiyyətlə alaraq ona sarsıdıcı zərbə endirən ordumuz bu inamı daha da qətiləşdirdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev erməni hərbi bölmələrinin təxribatlarının qarşısının alınması ilə bağlı qəti əmrindən sonra artıq düşmənə layiqli dərs verildi. Biz ordumuza və Ali Baş Komandanımıza güvənərək doğma kəndimizdə yaşayır, təsərrüfatımızla məşğul oluruq. Hamımız inanırıq ki, işğal altında olan torpaqlarımız gec-tez azad ediləcəkdir. Biz bir addım da geri çəkilməyəcəyik. Hər birimiz silaha sarılıb Ali Baş Komandanımızın əmri ilə düşmənə qarşı vuruşmağa hazırıq.

Ermənilərin iyulun 12-də kəndi atəşə tutmağa başladıqlarını deyən Nəbi Hüseynov bildirib ki, ordumuz düşmənə layiqli cavab verdi. Ermənilər elə bilirlər ki, biz top-tüfəngdən qorxub buraları tərk edəcəyik. Amma düşmənin bu niyyəti baş tutmayacaq, ürəyində qalacaq. Biz öz torpağımızdayıq. Düşmənin təxribatı kənd sakinlərinin psixoloji durumuna heç bir mənfi təsir göstərməyib. Biz Prezident, Ali Baş Komandan İlham Əliyevə, Azərbaycan əsgərinə güvənib doğma torpağımızda yaşayırıq və yaşayacağıq.

Kənd sakinləri ilə bir yerdə olan Milli Məclisin deputatı Qənirə Paşayeva bildirib ki, Azərbaycan Ordusu düşmənə ən yüksək səviyyədə cavab verib və zərbələr vurmaqda davam edir. Bir qarış da olsa ərazimizi ələ keçirə bilməyən düşmən ağır itki verərək geri oturdulub. Ermənilər öz itkilərini nə qədər gizlətsələr də, bu barədə məlumatlar artıq üzə çıxmaqdadır. Düşmənin təxribatlarının qarşısını alan hərbçilərimiz yüksək peşəkarlıq və qəhrəmanlıq göstərirlər.

Kəndin digər sakinləri də müxbirimizlə söhbətlərində mənfur Ermənistan ordusunun bölmələrinin törətdikləri təxribatlardan qorxmadıqlarını bildiriblər. Qeyd ediblər ki, Azərbaycan Ordusu düşmənin cavabını hər zaman lazımınca verir.

Mənfur qonşularımızın dinc əhalini mütəmadi atəşə tutmasına baxmayaraq, Tovuz rayonunun Ermənistan ilə sərhədboyu kəndlərində, o cümlədən Ağdam, Dondar Quşçu və digər yaşayış məntəqələrində həyat öz axarı ilə davam edir. Sakinlərlə söhbətlərdə bir daha əmin olduq ki, düşmən belə çirkin təxribatlarla heç vaxt öz məkrli niyyətinə çata bilməyəcək.

## Düşmənin bir neçə hərbi obyekti, texnikası və 20-dən çox şəxsi heyəti məhv edilib

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi düşmənin bir neçə hərbi obyektinin və texnikasının darmadağın edilməsi ilə bağlı məlumat yayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, düşmənə qarşı görülən sərt cəza tədbirləri nəticəsində iyulun 13-də günün ikinci yarısında Ermənistan silahlı qüvvələrinin atəş mövqeləri, kəşfiyyat bölməsinin radiolokasiya stansiyası, hərbi avtomobil texnikası üçün saxlanc, tank, zirehli transportyor, 20-dən çox şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu bölmələrimizin dəqiq atəşi ilə darmadağın edilib.

Qarşı tərəf itkilərini gizlətməklə ictimaiyyəti aldatmaqda davam edir.

## Düşmən Tovuz rayonunun Ağdam və Dondar Quşçu kəndlərini minaatanlardan və D-30 topundan atəşə tutub

Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Ağdam və Dondar Quşçu kəndlərini 120 millimetrlik minaatanlardan və D-30 topundan atəşə tutublar.

Bunu AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı bildirib.

V.Dərgahlı qeyd edib ki, kənd sakinlərinə heç bir ziyan dəyməyib. Düşmənin bütün təxribatlarına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görülür.

## *MN:* Azərbaycana məxsus PUA-nın vurulması barədə yayılan məlumatlar yalandır

Ermənistan kütləvi informasiya vasitələrində Azərbaycana məxsus PUA-nın vurulması barədə növbəti dezinformasiya xarakterli məlumat yayılıb. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

Bildirilib ki, bu xəbər həqiqətə uyğun deyil, Azərbaycan Ordusunun bölmələrinə məxsus PUA-lar tam tərkibdə sıradadır və itki yoxdur.

1969 **AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ:** 2020
**qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf**

# Tarixi dönüşün böyük uğurları

*Əvvəli 1-ci səh.*

## Sosial-iqtisadi inkişaf və onun nəticələri

SSRİ-nin tərkibinə daxil olan respublikaların rəhbərləri içərisində Heydər Əliyev parlaq zəkası, iti mühakimə qabiliyyəti, möhkəm xarakteri, mürəkkəb vəziyyətlərdə obyektiv və ədalətli mövqe tutması ilə hamıdan fərqlənirdi. Ulu Öndər təcrübəli dövlət xadimi və təşkilatçı kimi ictimai həyatın bütün sahələrinə dair zəruri biliklərə malik idi. Sovet sisteminin bütün xüsusiyyətlərinə dərindən bələd olan Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi geriliyinin aradan qaldırılması istiqamətində mühüm addımlar atmağa başladı. 1960-cı illərin sonlarına qədər respublikamızda əsasən neft sənayesinin inkişafında müəyyən irəliləyişlər olsa da, iqtisadiyyatın digər sahələrində çatışmazlıqlar mövcud idi. Azərbaycan sovetlər ittifaqının karbohidrogen xammalı istehsal edən əsas respublikası olaraq qalırdı. Neft və onunla bağlı olan sahələr respublikamızın xalq təsərrüfatına ümumi kapital qoyuluşunun böyük bir hissəsini özünə cəlb etsə də, istehsal və sosial infrastruktur zəif inkişaf etmişdi. SSRİ-nin tərkibində olan Azərbaycanın iqtisadi inkişafını müstəqil şəkildə müəyyənləşdirmək səlahiyyəti yox idi. Buna görə də uzun illər respublika iqtisadiyyatı yalnız neft-qaz hasilatı və onunla əlaqədar sahələrin inkişafından asılı olmuşdu. 1950-1960-cı illərdə SSRİ-nin digər regionlarında zəngin neft ehtiyatlarının aşkar olunub istifadəyə verilməsi isə Azərbaycan neftinə marağı xeyli azaltdı ki, bu da bütövlükdə respublika iqtisadiyyatının artım sürətinə mənfi təsir göstərdi. Həmin dövrdə qara metallurgiya, neft kimyası, kimya, elektrotexnika və cihazqayırma kimi sənaye sahələrinin yaradılması üçün müəyyən tədbirlər görülsə də, bu istiqamətdə işlər çox ləng aparılırdı. İri müəssisələrin əksəriyyəti əsasən Bakı və Sumqayıt şəhərlərində tikilir, digər şəhər və rayonlarda onların tikintisinə biganə yanaşılırdı ki, bu da əmək ehtiyatlarından istifadə dərəcəsini aşağı salır, işçi qüvvəsinin kütləvi şəkildə regionlardan paytaxta gəlməsinə səbəb olurdu. Nəticədə Bakı şəhərində mənzil və digər sosial obyektlərə tələbatların təmin olunmasında ciddi problemlər yaranırdı. Kiçik şəhərlərin, inzibati rayon mərkəzlərinin əmək ehtiyatlarından səmərəli istifadə olunması, orada yaşayan əhalinin mədəni-məişət şəraitinin yaxşılaşdırılması lazımi səviyyədə deyildi.

Buna görə də respublikanın maddi və intellektual potensialını düzgün qiymətləndirib, iqtisadiyyatın inkişafı üçün mükəmməl tədbirlər planını işləyib hazırlamaq, uzun illər yığılıb qalmış sosial-iqtisadi problemləri həll etmək, xalq təsərrüfatında əsaslı struktur dəyişikliyi aparmaq, yeni sənaye sahələri yaratmaq, məhsuldar qüvvələri daha məqsədəuyğun şəkildə yerləşdirməklə kiçik və orta şəhərlərin inkişafını təmin etmək kimi vəzifələrin yerinə yetirilməsi vacib idi. 1969-cu ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycanın rəhbərliyinə gəldikdən sonra göstərilən vəzifələrin həyata keçirilməsi istiqamətində mühüm işlər görüldü.

Azərbaycanın bütün sahələrini əhatə edən dinamik inkişafa nail olmaq üçün Heydər Əliyev çevik və ardıcıl siyasət apardı, sənayenin, aqrar-sənaye kompleksinin ixtisaslaşmış sahələrinin inkişafı məqsədilə müxtəlif proqramlar həyata keçirdi. 1969-1982-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti Azərbaycanın xalq təsərrüfatının və onun ayrı-ayrı sahələrinin inkişafına dair mühüm qərarlar qəbul etdi. Həmin sənədlərdə sosial-iqtisadi inkişafı nəzərdə tutan əsas məqsədlər öz əksini tapdı. Onlara nail olunması yönündə görülmüş təşkilati-iqtisadi tədbirlərin nəticəsində respublikanın hərtərəfli inkişafı üçün böyük istehsal potensialı yaradıldı. Azərbaycan elektrik enerjisi, neft-mədən avadanlığı, kimya məhsulları, üzüm şərabı, meyvə-tərəvəz konservi, pambıq mahlıcı, ipək sap, yaşıl çay və digər məhsulların istehsalına görə SSRİ-yə daxil olan respublikalar arasında qabaqcıl yer tutdu. Azərbaycanın sənaye və kənd təsərrüfatı üzrə istehsal göstəriciləri yüksəldi, ümumittifaq əmək bölgüsündə payı artdı.

Heydər Əliyevin qətiyyətli və prinsipial fəaliyyəti nəticəsində SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri Azərbaycanda tikildi. 1975-ci ildə Bakı Məişət Kondisionerləri zavodu fəaliyyətə başladı. Hər il zavodda layihə gücündən artıq, 430 min kondisioner istehsal olunaraq, dünyanın 60-dan çox ölkəsinə göndərilmişdir. Bununla yanaşı, "Ozon" Elmi-İstehsalat Birliyi, Elektron Hesablayıcı Maşınlar zavodu, Sumqayıt Kompressor zavodu, Üst Trikotaj Fabriki, Bakı Tikiş və Ayaqqabı fabriki, Gəncə Əlvan Metallar Emalı zavodu, Naxçıvan Şüşə Qablar zavodu, Əli-Bayramlı Məişət Cihazları zavodu kimi iri sənaye müəssisələri tikilərək istifadəyə verilmişdir.

SSRİ rəhbərliyi respublikamızda maşınqayırma, kimya, neft kimyası, elektron sənayesi, əlvan və qara metallurgiya, toxuculuq, yeyinti, emal müəssisələrinin tikintisinə razılıq verdi. 1969-1982-ci illərdə Azərbaycanda yeni sənaye sahələri yaradılmış, müxtəlif elektrik cihazları istehsal edən zavodlar inşa olunmuşdur. Həmin dövrdə respublikamızda 250-dən çox sənaye müəssisəsi fəaliyyətə başladı. Azərbaycan sənaye məhsulunun artım sürətinə görə SSRİ-nin respublikaları arasında ən qabaqcıl mövqelərdən birini tutdu. 1969-1982-ci illərdə neft sənayesi üçün müxtəlif təyinatlı 400-dən çox gəmi alındı. 1978-ci ildə Bakı Dərin Özüllər Zavodunun təməli qoyuldu.

Sənayenin inkişafı istehsal müəssisələrinin yeni texnologiyalar əsasında qurulmasına böyük təkan verdi, on minlərlə yeni iş yeri açıldı. Bakı və Sumqayıtla yanaşı, Gəncə, Mingəçevir, Şəki, Lənkəran kimi orta və kiçik şəhərlərdə tikinti materialları, yüngül və yeyinti sənaye müəssisələri, iri maşınqayırma zavodlarının filialları fəaliyyətə başladı. 1980-ci illərdə istehsaldan gələn milli gəlirin 20 faizindən çoxu sənayenin payına düşürdü. Həmin dövrdə milli gəlirin ümumi həcmi 2,5 dəfə, sənaye istehsalı, həmçinin əmək məhsuldarlığı 2 dəfə, xalq istehlakı mallarının istehsalı isə 3 dəfə artmışdı. Kənd təsərrüfatında məcmu məhsul 2,7 dəfə artmış, bu sahədə məhsuldarlıq isə 2 dəfədən artıq çoxalmışdı. SSRİ-nin bir çox məhsullara, xüsusilə neft sənayesində işlənən avadanlıqlara tələbatının 70 faizə yaxınını Azərbaycan təmin edirdi. Sənaye müəssisələrinin yenidən qurulması və müasirləşməsi istehsalın texniki səviyyəsini xeyli yüksəltdi.

1969-1982-ci illərdə respublikamızda əmək məhsuldarlığının yüksəlməsi iqtisadiyyatın inkişafına güclü təsir göstərən faktor oldu. Əsaslı vəsait qoyuluşunun artımı nəticəsində Azərbaycan böyük tikinti meydançasına çevrildi. Həmin illərdə yeni texnologiyalara əsaslanan müəssisələrin fəaliyyətə başlaması sənayenin maddi-texniki bazasını möhkəmləndirdi. Elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi nəticəsində elektron maşınqayırması, radio-sənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıqların istehsalı kimi yeni mütərəqqi sənaye sahələri yaradıldı. Respublikamızda neft emalı sənayesi tarixində ilk dəfə olaraq neftin ikiqat emalı üçün qurğu və avadanlıqlar quraşdırıldı, qaz sənayesinin inkişafında ən yüksək nəticələr əldə olundu. Azərbaycanın energetika sisteminin təkmilləşməsi Cənubi Qafqazın enerji sisteminin formalaşmasında, həmçinin SSRİ-nin vahid enerji şəbəkəsi ilə əlaqəsinin möhkəmlənməsində mühüm əhəmiyyət daşıdı.

Həmin dövrdə üzümçülük, baramaçılıq, tütünçülük, çayçılıq və çayın emalı, pambıqçılıq kompleksləri əsasında yüngül və yeyinti sənaye məhsulları istehsalının həcmi əhəmiyyətli dərəcədə artdı. Respublikamız istehsal etdiyi bir çox əsas məhsullarla özünün yerli tələbatını ödəməklə yanaşı, həm də xeyli sayda müxtəlif məhsullar ixrac etməyə başladı. SSRİ üzrə üzüm və tütün istehsalının həcminə görə Azərbaycan birinci, barama istehsalına görə üçüncü, pambıq istehsalına görə dördüncü yeri tutdu.

Göründüyü kimi, Heydər Əliyevin yüksək idarəçilik bacarığının sayəsində respublikamızın iqtisadiyyatı və onun müxtəlif sahələri sürətli inkişaf yolu keçmişdir. Bunun nəticəsidir ki, həmin dövrdə Azərbaycan da Rusiya və Ukrayna kimi ittifaq büdcəsindən dotasiya almırdı. 1969-1982-ci illərdə Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar sonralar xalqımızın siyasi müstəqilliyi yolunda mühüm təməl rolunu oynadı.

## Milli-mənəvi dəyərlərin inkişafı və azərbaycançılıq məfkurəsi

Xalqımız Heydər Əliyevin doğma Vətəninə, milli-mənəvi dəyərlərə böyük sevgisi ilə hələ xeyli əvvəllər, onun Azərbaycana rəhbərlik etmədiyi illərdə tanış olmuşdur. Belə ki, Heydər Əliyev Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) sədri vəzifəsində işləyərkən kommunizm ideologiyasının qadağalarına baxmayaraq, mənəvi-mədəni dəyərlərin qorunmasını, milli düşüncəli ziyalıların yaradıcılıq fəaliyyəti üçün lazımi şəraitin yaradılmasını diqqət mərkəzində saxlamışdır. Vaxtilə milli təəssübkeşliyinə görə sıxışdırılan, siyasi-ideoloji təzyiqlərə məruz qalmış ziyalılar Heydər Əliyevin DTK-ya rəhbərliyi dövründə rahat nəfəs almışlar.

Ümumdünya tarixindən məlumdur ki, müdrik liderlər təmsil etdikləri dövlətlərin ali məqsədlərinə nail olmaqla, həm də milli-mənəvi dəyərlərin, mədəni irsin gələcək nəsillərə çatdırılmasında böyük rol oynamışlar. Bu baxımdan Heydər Əliyev milli özünüdərkin güclənməsi üçün fəal siyasət aparmış, nəinki SSRİ-də, bütün dünyada Azərbaycan xalqının tarixi, milli kimliyi, dili, mədəniyyəti və adət-ənənələri ilə bağlı dolğun ictimai rəyin formalaşmasına çalışmışdır.

Heydər Əliyev azərbaycançılıq məfkurəsinin ictimai fikirdə özünə mühüm yer tutması üçün prinsipial fəaliyyət göstərmişdir. Bunun nəticəsində xalqımızın tarixi, dili, ədəbiyyatı və mədəniyyətinin hərtərəfli şəkildə, dərindən öyrənilməsi sahəsində nailiyyətlər əldə edilmiş, gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur. Sovet dövründə hakim ideologiyanın qadağalarına baxmayaraq, milli-mənəvi dəyərlərin tərkib hissələrindən olan ana dilinin inkişafı məqsədilə əhəmiyyətli addımlar atılmışdır. 1974-cü ildə ali məktəb tələbələri üçün hazırlanmış dördcildlik "Müasir Azərbaycan dili" dərsliyi dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan SSR-in 1978-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin dövlət dili olması barədə maddənin öz əksini tapması milli şüurun inkişafına mühüm təkan vermişdir. Heydər Əliyev bununla bağlı demişdir: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə Moskvada nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük". Ulu Öndərin tarixi xidmətlərindən biri azərbaycançılıq məfkurəsinə əsaslanan milli ideologiyanın inkişafı ilə bağlıdır. Heydər Əliyevin Azərbaycan SSR-yə rəhbərliyi dövründə milli ideyanın ictimai şüurda özünə mühüm yer tutması üçün əlverişli ictimai-siyasi, elmi-mənəvi mühit yaradılmışdır. Yazıçıların və mədəniyyət xadimlərinin həmin şəraitdən bəhrələnərək yazdıqları çoxsaylı əsərlər, yaratdıqları incəsənət nümunələri gənc nəslin azərbaycançılıq məfkurəsi ruhunda tərbiyə olunmasında xüsusi yer tutmuşdur. Heydər Əliyev azərbaycançılıq ideyasını əsərlərində təbliğ etdiklərinə görə millətçilikdə günahlandırılıb təqiblərə məruz qalan Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Anar, Ziya Bünyadov kimi görkəmli şəxsiyyətləri ən çətin məqamlarda qorumuş, cəzalandırılmaqdan xilas etmişdir. Heydər Əliyevin dövründə Azərbaycanın bütün regionlarında xalqımızın görkəmli şəxsiyyətlərinin abidələri ucaldılmış, repressiya qurbanı olmuş dahi şair Hüseyn Cavidin nəşi Vətəninə gətirilmişdir.

Heydər Əliyev dövlətçilik ənənələrinin, milli-mənəvi dəyərlərin inkişafına nail olmuş, bununla bağlı sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə gördüyü işlər haqqında bildirmişdir: "Biz sovet rejimində yaşayırdıq. Məgər biz bu rejimi dəyişə bilərdik? Amma iş ondadır ki, bu rejim altında olsa da, sən xalqın, millətin üçün nə edirsən. Əgər bu rejimi dəyişdirə bilmirsənsə, onda onun imkanlarından istifadə edib xalqına kömək göstər. Mən bunu etdim. Azərbaycan o illərdə çox yüksəklərə qalxdı". Xalqımızın tarixi keçmişinin öyrənilməsi, zəngin ədəbi-mədəni irsinin qorunub saxlanılması üçün Heydər Əliyevin gördüyü işlərin nəticəsində ictimai şüurda dövlət müstəqilliyi duyğuları özünə yer tapmışdır. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Mirzə Fətəli Axundov, Mirzə Ələkbər Sabir, Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyov, Səməd Vurğun kimi görkəmli şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində keçirilməsi milli özünüdərk prosesinin dərinləşməsinə böyük təsir göstərmişdir. Eyni zamanda Azərbaycan ədəbiyyatı, folkloru, xalqımızın ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanı ilə bağlı tarixi və ədəbi araşdırmalar aparılmışdır. Xalqımızın azadlıq ideallarını özünəməxsus şəkildə ifadə edən aşıq poeziyasının və musiqisinin inkişafına böyük əhəmiyyət verilmişdir. 1972-ci ildə Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən biri olan Aşıq Ələsgərin 150 illik yubileyi aşığın anadan olduğu Göyçə mahalında, eyni zamanda, Bakıda və Moskvada yüksək səviyyədə keçirilmişdir.

## Elmin və təhsilin inkişafı, milli kadr potensialının formalaşdırılması

Heydər Əliyevin sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə apardığı siyasət elm və təhsilin inkişafında mühüm rol oynamışdır. Ulu Öndər həmin sahələrə bilik və savad mənbəyi kimi yanaşmaqla kifayətlənməmiş, həm də onlara ictimai həyatda fəal vətəndaşlıq mövqeyini formalaşdıran vasitələrdən biri kimi baxmışdır. Həmin dövrdə elm və təhsilin inkişafı cəmiyyətin tərəqqisində, azərbaycançılıq ideyasının və milli mənlik şüurunun formalaşmasında özünəməxsus yer tutmuşdur. Azərbaycan Elmlər Akademiyasında, ali məktəblərdə və digər elmi mərkəzlərdə fundamental elmlərin inkişafı üçün yeni texnologiyalarla təchiz olunmuş maddi-texniki baza yaradılmışdır. Hakim ideologiyanın təsirlərinə baxmayaraq, ictimai və humanitar elmlərin obyektiv istiqamətdə inkişafına nail olunmasına çalışılmış, təhsilin milliləşdirilməsi üçün mühüm işlər görülmüşdür.

1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasının, ali və orta ümumtəhsil məktəblərinin maddi-texniki bazası möhkəmlənmişdir. Heydər Əliyev xalqın inkişafında elmin böyük rol oynadığını yüksək qiymətləndirir, elmi fəaliyyətlə məşğul olan insanlara yüksək diqqət və qayğı ilə yanaşırdı. Ulu Öndər Azərbaycan KP MK-nın 1969-cu il avqustun 5-də keçirilən plenumunda respublikada elm sahəsində mövcud olan problemlərlə bağlı qeyd etmişdir: "Elmi idarələrimizin fəaliyyətində hələ ciddi nöqsanlar vardır. Elmlər Akademiyası, bir sıra sahə elmi idarələri elmi-texniki tərəqqinin sürətləndirilməsi uğrunda, tamamlanmış işlərin istehsalata tətbiqi uğrunda mübarizədə kifayət qədər əzmkarlıq göstərmirlər". Bundan irəli gələrək 1970-1980-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə elm və təhsil sahəsində ciddi islahatlar aparıldı. Həmin dövrdə respublika üzrə ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-yə çatdı. Azərbaycanda 350 mindən çox şagird yeri olan 849 ümumtəhsil məktəbi tikildi, məktəbəqədər tərbiyə müəssisələrinin sayı artdı. 1969-cu illə müqayisədə 1982-ci ildə ali təhsil müəssisələrinin sayı 12-dən 21-ə, ali məktəb tələbələrinin sayı isə 70 min nəfərdən 100 min nəfərə çatdı.

SSRİ-nin nüfuzlu ali məktəblərində oxumağa göndərilən azərbaycanlı gənclərin sayı Heydər Əliyevin təşəbbüsü ilə artırıldı. Əgər 1960-cı illərdə SSRİ-nin müxtəlif yerlərində oxumaq istəyənlər üçün cəmi 50 yer ayrılırdısa, 1980-ci illərin əvvəllərində bu göstərici 1000 nəfərdən çox idi. Heydər Əliyev Azərbaycandan kənarda təhsil almış mütəxəssislərin ümumrespublika toplantısında (31 avqust 1998-ci il) çıxış edərək bildirmişdir: "Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikamızın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilibdir. Mən dərhal maraqlandım ki, bəs siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim. Onların əksəriyyəti azərbaycanlı deyildi. Sonrakı illərdə də bu məsələ bir az çətin idi. Bilirsiniz ki, Azərbaycanda bir çox millətlərin nümayəndələri vardır. O vaxt mən iki-üç ildən sonra hər il respublikadan kənarda oxumağa göndərilənlərin 97-98 faizinin azərbaycanlılardan ibarət olmasına nail oldum".

Heydər Əliyev respublikamızda milli hərbi kadr hazırlığı üçün 1971-ci ildə C.Naxçıvanski adına Hərbi Məktəbi yaratmışdır. Məlumdur ki, SSRİ-də hərbi məktəblər əsasən Rusiya, Ukrayna və Belorusiyada fəaliyyət göstərirdi, müsəlman-türk respublikalarında isə bu cür təhsil müəssisələri mövcud deyildi. Ümummilli Lider bununla bağlı olaraq demişdir: "O vaxt düşünürdüm, yaxşı, biz Sovet İttifaqının bərabərhüquqlu müttəfiq respublikasıyıq. Biz nə üçün ordudan təcrid olunuruq? Və nəticədə bu məktəbi yarada bildik". Azərbaycan yenidən dövlət müstəqilliyini əldə etdikdən sonra C.Naxçıvanski adına Hərbi Məktəb milli ordu quruculuğu üçün hərbi kadr hazırlığında mühüm tədris bazası rolunu oynadı. Elm və təhsillə bağlı Heydər Əliyevin həyata keçirdiyi siyasət gələcəkdə milli dövlətçilik arzularının reallaşmasında və xalqımızın onun ətrafında səfərbər olmasında böyük əhəmiyyət daşımışdır.

Heydər Əliyevin yüksək işgüzarlığı, rastlaşdığı problemləri peşəkarlıqla aradan qaldırması, SSRİ respublikaları arasında sosial-iqtisadi inkişafına görə axırıncı yerlərdən birini tutan Azərbaycanı ön sıralara çıxarması SSRİ-nin siyasi elitasının böyük marağına səbəb olmuşdu. Bunun nəticəsində Heydər Əliyev 1982-ci ildə SSRİ kimi nəhəng dövlətin Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Ulu Öndər həmin vəzifədə işləyərkən yenə də xalqımızın milli maraqlarını ifadə edən siyasət aparmış, Azərbaycana daim dəstək vermişdir. M.Qorbaçovun və onun ermənilərdən ibarət olan yaxın ətrafının təzyiqi ilə Heydər Əliyev tutduğu yüksək vəzifəsindən istefa verdikdən sonra Azərbaycan ictimai-siyasi və sosial-iqtisadi böhranla, Ermənistanın hərbi təcavüzü ilə üzləşdi.

## 1969-1982-ci illərdəki nailiyyətlərin müstəqil dövlət quruculuğunda əhəmiyyəti

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində hakimiyyətdə olan qüvvələrin səriştəsiz siyasəti nəticəsində cəmiyyətin bütün sahələri dərin böhranla üzləşdi, Ermənistanın hərbi təcavüzünün qarşısını almaq üçün vahid komandanlığa tabe olan milli ordu yaradılmadı, xaos və qarşıdurmaların miqyası getdikcə genişləndi. Xüsusilə, AXC-Müsavat iqtidarının naşı siyasəti vəziyyəti daha ağırlaşdırdı. Xalqımız çətin və ağır vəziyyətdən çıxış yolunu həmin dövrdə Naxçıvan Ali Məclisinin Sədri olan görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsində görür və bu məqsədlə müxtəlif təşəbbüslərlə çıxış edirdi. 1993-cü il iyunun 4-də Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalanda AXC-Müsavat iqtidarı həm xalqımızın israrlı tələbini, həm də özünün acınacaqlı aqibətini nəzərə alaraq Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldı.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) müstəqil dövlət quruculuğu yolunda uzaqgörən və qətiyyətli siyasət apardı. Bunun nəticəsində ölkəmiz sosial-iqtisadi inkişafa nail oldu, müstəqil dövlətin hüquqi-siyasi əsasları formalaşdırıldı, ordu quruculuğu sahəsində mühüm addımlar atıldı. Xalqımızın qədim və zəngin milli-mənəvi dəyərləri qorunub saxlanıldı, azərbaycançılıq məfkurəsi milli ideologiya səviyyəsinə qaldırıldı. Milli maraqları ifadə edən xarici siyasətin aparılması sayəsində əldə olunmuş uğurlar, nəqliyyat-enerji təhlükəsizliyinin təmin olunması Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirdi. Ölkəmizin dünya dövlətləri və beynəlxalq təşkilatlarla münasibətləri inkişaf etdi. BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı xalqımızın mənafeyini, beynəlxalq hüquqi normaları, prinsipləri ifadə edən qətnamə və qərarlar qəbul etdilər.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir, ölkəmizdə hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti, bazar iqtisadiyyatı möhkəmlənir. Prezident İlham Əliyevin siyasəti Azərbaycanın siyasi-iqtisadi, mədəni-intellektual potensialına əsaslanır və müasir dövrün çağırışlarına cavab verir. Milliyyətindən asılı olmayaraq hər kəsin hüquqlarının qorunması, müxtəlif xalqların mədəniyyətlərinin və adət-ənənələrinin inkişafına şərait yaradılması vətəndaş həmrəyliyini möhkəmləndirən faktorlar kimi çıxış edir. Azərbaycan dünyada fərqli dini sivilizasiyaların qovuşduğu tolerant məkan, milli birlik şəraitində yaşayan dövlət kimi tanınır.

Əhalinin rifahına xidmət edən sosial-iqtisadi və elmi inkişaf sahəsində böyük nailiyyətlər əldə olunur, vətəndaş cəmiyyəti və multikultural dəyərlər inkişaf edir. Milli maraqlara və praqmatizmə əsaslanan xarici siyasətin aparılması beynəlxalq ictimaiyyətdə Azərbaycana böyük inam və etimad qazandırır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə nail olmaq üçün fəal və çevik xarici siyasət həyata keçirilir, eyni zamanda, milli ordumuzun maddi-texniki bazası gücləndirilir. Bunun nəticəsidir ki, Azərbaycan müasir tələblərə tam cavab verən, yüksək mənəvi-psixoloji hazırlıqlı, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan Silahlı Qüvvələrə malikdir.

Azərbaycan xalqı Prezident İlham Əliyevin apardığı siyasətlə bağlı həmrəylik nümayiş etdirir və bu, ictimai həyatda dəfələrlə sübut olunmuşdur. 2016-cı il Aprel döyüşləri zamanı Milli Ordumuz Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboy rayonunun Gülüstan kəndini və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqeləri işğaldan azad etdi. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad olundu, dövlət sərhədi boyunca əlverişli strateji yüksəkliklər ələ keçirildi, Yerevan-Gorus-Laçın yolu nəzarətə götürüldü. Bütün bunlar Azərbaycan Ordusunun gücünü dünyaya nümayiş etdirməklə yanaşı, xalq-dövlət birliyini daha da möhkəmləndirdi.

Koronavirus pandemiyasına qarşı mübarizədə hakimiyyətlə xalq arasındakı həmrəylik mühüm əhəmiyyət daşıyır. Bu sahədə Prezident İlham Əliyevin apardığı siyasət ölkəmizin vətəndaşları ilə yanaşı, beynəlxalq birlik tərəfindən də dəstəklənir. Hələ pandemiyanın yayılmağa başladığı ilk dövrlərdə Prezident İlham Əliyev xəstəliyə qarşı mübarizənin beynəlxalq təşkilatlar səviyyəsində aparılması təşəbbüsü ilə çıxış etmişdir. Onun təşəbbüsü ilə 2020-ci il aprelin 10-da Türk Şurasının videokonfrans formatında fövqəladə Zirvə görüşü keçirilmişdir. Qoşulmama Hərəkatının sədri Prezident İlham Əliyevin təşəbbüsü ilə təşkilatın Təmas Qrupunun 2020-ci il mayın 4-də keçirilmiş Zirvə görüşündə dövlətimizin başçısı çıxış edərək, pandemiya ilə mübarizədə qlobal həmrəyliyin yaradılması üçün BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyanın keçirilməsi təklifini irəli sürmüşdür. Dünyanın əksər dövlətlərinin bu təklifi dəstəkləməsi beynəlxalq ictimaiyyətin Azərbaycana böyük etimad göstərdiyini sübut edir.

Heydər Əliyev irsinin ictimai fikirdə mühüm yer tutması və Ulu Öndərin ideyalarının təbliği üçün onun adını daşıyan fond çoxşaxəli fəaliyyət göstərir. Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın diqqət və qayğısı nəticəsində xalqımızın milli-mənəvi dəyərləri qorunur və zənginləşir. Fondun elm, təhsil və mədəniyyətin inkişafı məqsədilə həyata keçirdiyi layihələr xalqımızın milli-mənəvi dəyərlərinin dünyada təbliğ olunmasında böyük əhəmiyyət daşıyır. Heydər Əliyev Fondu mədəniyyətlərarası dialoqun və tolerant ənənələrinin inkişafına mühüm töhfələr verir.

Yuxarıda göstərilənlərin ümumiləşdirilməsindən aydın olur ki, Ümummilli Lider Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycana rəhbərlik etməyə başladıqdan sonra uzun illər yığılıb qalmış sosial-iqtisadi problemlər respublikamızın maddi və intellektual potensialından səmərəli şəkildə istifadə olunmaqla həll edildi. Azərbaycan aqrar respublikadan davamlı inkişaf edən sənaye ölkəsinə çevrildi. Sənayenin, aqrar-sənaye kompleksinin ixtisaslaşmış sahələrinin inkişafı üçün xeyli sayda proqramlar həyata keçirildi. Azərbaycan iqtisadiyyatın müxtəlif sahələri üzrə məhsul istehsalına görə SSRİ-yə daxil olan respublikalar arasında qabaqcıl yer tutdu. Heydər Əliyevin təşəbbüsü və qətiyyətli iradəsi nəticəsində SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri Azərbaycanda tikildi. Ulu Öndər sovet dövrünün siyasi-ideoloji qadağalarına baxmayaraq, xalqımızın mənəvi-mədəni dəyərlərini qorudu, milli düşüncəli ziyalıların yaradıcılıq fəaliyyəti üçün lazımi şərait yaratdı.

Heydər Əliyev azərbaycançılıq məfkurəsinin ictimai fikirdə özünə mühüm yer tutmasına nail oldu ki, bu da gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyə edilməsində böyük əhəmiyyət daşıdı. Respublikamızda güclü elmi-iqtisadi və ədəbi-mədəni potensial yaradıldı. Heydər Əliyevin təşəbbüsü ilə xeyli sayda azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali məktəblərində oxumağa göndərildi. Həmin dövrdə əldə olunmuş nailiyyətlər Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra dövlət quruculuğunda mühüm rol oynadı. Ulu Öndər Heydər Əliyevin xalqımızın inkişafı naminə apardığı siyasi kursu Prezident İlham Əliyev uğurla davam etdirir, Azərbaycanın hüquqi, demokratik, dünyəvi dövlət kimi dünya birliyində nüfuzu getdikcə artır.

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***Yeni Azərbaycan Partiyası İcra katibinin müavini***



1969 **AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ:** 2020
**qüdrətli dövlət, güclü xalq, möhtəşəm inkişaf**

# Heydər Əliyev ideyaları Azərbaycanın inkişafına və qüdrətlənməsinə xidmət edir

Dövlətlərin və xalqların taleyində böyük şəxsiyyətlərin, müdrik rəhbərlərin müstəsna rolu onların tarixi missiyası kimi nəzərdən keçirilir. Heydər Əliyev kimi dahilər isə öz fəaliyyətləri ilə dövlətin və xalqın həm də inkişaf salnaməsini və qürur doğuran möhtəşəm tarixini yaradırlar. İyulun 14-də, Azərbaycana birinci rəhbərliyinin ildönümündə bizlər Heydər Əliyevin əziz xatirəsini bir daha yad edirik və illər ötdükcə onun şəxsiyyətinin əzəmətini, qoyub getdiyi tarixi irsin, ideyaların yüksək dəyərini daha dərindən anlayırıq.





Neft ölkəsi olmasına baxmayaraq, ötən əsrin 60-cı illərində Azərbaycan sovet ittifaqının geridə qalmış respublikalarından biri idi. Belə bir vaxtda rəhbərliyə başlayan Heydər Əliyev tükənməz enerjisi və idarəçilik məharəti ilə qısa zaman ərzində Azərbaycanın sosial-iqtisadi həyatında böyük dəyişikliklər etdi, durğunluqdan inkişafa doğru dönüşün təməlini qoydu.

Heydər Əliyev 1982-ci ildə Moskvaya ali rəhbər vəzifəyə getdiyi zaman Azərbaycan artıq ittifaqın inkişaf etmiş respublikalarından biri kimi tanınırdı. O illərdə çoxlu sayda sənaye müəssisələri yaradılmış, Azərbaycanın ittifaq miqyasında əhəmiyyəti artmış, o cümlədən neft sənayesinin ayrı-ayrı sahələri yenidən qurulmuşdu.

Sovet illərində Heydər Əliyevin təşəbbüsləri ilə milli-mədəni ənənələrimizin itməməsinə, qorunub saxlanılmasına, insanların milli dəyərlərə daha çox bağlanmasına xidmət edən tədbirlər həyata keçirildi. Bu mənada həmin dövrdə sosial-iqtisadi yüksəlişlə yanaşı, milli dəyər və ənənələrin cəmiyyətdə geniş intişar tapması Heydər Əliyevin sayəsində mümkün oldu. Sovet rejiminin ideoloji baxışlarının hakim olduğu bir zamanda Heydər Əliyev xalqımızın milli-mədəni və mənəvi dəyərlərinin aşınmaması, assimilyasiyaya məruz qalmaması üçün nə lazımsa etdi. Elə bu səbəbdəndir ki, sovet hakimiyyəti illərində həyata keçirilən məqsədyönlü siyasət xalqımıza xas dəyərləri şüurlarımızdan silə bilmədi.

Qeyd etdiyim ki, 70-80-ci illərdə Azərbaycanda böyük iqtisadi potensial yaradılmışdı. Bunun da nəticəsində Azərbaycan hələ sovet dövründə Rusiya və Ukrayna ilə yanaşı, məhz öz daxili imkanları hesabına iqtisadi baxımdan sərbəst yaşaya bilən 3 respublikadan birinə çevrilmişdi. Lakin müstəqilliyimzin ilk illərində hakimiyyətdə olan qüvvələr bu iqtisadi potensial üzərində ölkəni inkişaf etdirmək əvəzinə tamamilə səbatsız siyasət yürütdülər. Bunun da nəticəsində ölkədə vətəndaş qarşıdurması yarandı, mərkəzdənqaçma meyilləri gücləndi, separatizm baş qaldırdı. Ən faciəlisi odur ki, torpaqlarımızın azadlığı uğrunda döyüşən hərbi hissələrin siyasi qarşıdurmalara cəlb olunması Ermənistanın işğalçılıq planlarının daha da sürətlənməsinə rəvac verdi.

1993-cü ilin gərgin iyun günləri xatirimizdədir. Dönüb geriyə baxsaq, ötən 27 ildə Azərbaycanın necə dəyişdiyini, sürətlə inkişaf etdiyini, müstəqilliyinin daha da möhkəmləndiyini, dünya birliyində özünə layiqli yer tutduğunu, regional və qlobal miqyasda söz sahibinə, Cənubi Qafqazın liderinə çevrildiyini görərik. 1993-cü ilin iyununda ölkəmizin parçalanmaq, müstəqilliyimizin itirilmək təhlükəsi yaşandığı ərəfədə biz bugünkü möhtəşəm uğurlarımızın yaxın gələcəkdə olacağını təsəvvür belə edə bilməzdik. Amma bunlar baş verdi, çünki 1993-cü ilin ağrı-acılı iyun günlərində Azərbaycan xalqı ən doğru və ən müdrik seçimini edərək Ulu Öndər Heydər Əliyevə üz tutmuşdu. Məhz Heydər Əliyevin sayəsində Azərbaycanda siyasi böhrana son qoyuldu, vətəndaş qarşıdurmasının qarşısı alındı. Həmin ağır və mürəkkəb dövrdə xalqımızın Heydər Əliyevə müraciəti, təkidlə Ulu Öndərin hakimiyyətə dəvət olunması tarixin gərdişini dəyişdi. Həmin günləri xatırlayan hər birimiz yaxşı bilirik ki, o çətin günlərdə yalnız Heydər Əliyev dühası dövlətimizi, müstəqilliyimizi xilas edə bilərdi.

Bu baxımdan Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətlərindən biri odur ki, dahi şəxsiyyət kəskin geopolitik ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycanın dövlətçiliyini qorudu, ölkəni parçalanmaq təhlükəsindən xilas etdi. Bu baxımdan Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı müasir Azərbaycan dövlətinin yaranması ilə nəticələndi.

Eyni zamanda Heydər Əliyev hər bir sahə üzrə inkişafın təməlini qoydu. Hüquqi dövlət quruculuğu həyata keçirildi. Bu gün xalqımızın bəhrəsini gördüyü uğurlu neft strategiyasının müəllifi Ulu Öndər oldu. Postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda effektli aqrar islahatlar aparıldı. O cümlədən iqtisadi sferada inkişafın əsası qoyuldu. Təsadüfi deyil ki, müstəqilliyimizin ilk illərində iflic vəziyyətinə salınan iqtisadiyyatımızın ötən əsrin 90-cı illərinin ortalarında dərin böhrandan çıxarılması və iqtisadi inkişafın təməlinin qoyulması Heydər Əliyevin adı ilə bağlıdır.

Xalqımız əldə etdiyi bütün möhtəşəm nailiyyətlərinə görə məhz Ümummilli Lider Heydər Əliyevə minnətdardır. Azərbaycanı canı qədər sevən, ürəyi daim xalqının səadəti, xoşbəxtliyi uğrunda döyünən, ölkəsini azad, müstəqil və inkişafda görmək istəyən, Vətəninin, xalqının yolunda həyatını qurban verməyə hazır olan Heydər Əliyev dühasının mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir.

Heydər Əliyev zaman etibarilə dövlətçilik tariximizin 34 ilinə sahiblik edir. Fəqət əsrin üçdəbirindən bir qədər artıq olan bir dövrü ehtiva edən bu zaman kəsiyi Azərbaycanda müstəqilliyin əbədi, dönməz xarakter alması, sabit dövlət quruluşunun yaranması, xalqın təbii və konstitusion haqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş olaraq dərk etməsi və millət tək mövcudluğuna qədər inkişafı kimi misilsiz tarixi prosesi əhatələyir. Azərbaycan əsrlər boyu əxz etdiyi idarəetmə ənənələrini məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək millət kimi mövcudluğunu, dövlət qurmaq haqqını, özünü idarə etmək bacarığını nümayiş etdirib.

Respublikamız müstəqil dövlət olaraq mətinlə addımlayır, inkişaf edir, güclənir. Ulu Öndərin siyasi kursu, yaratdığı dövlətçilik ənənələri onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla və layiqincə davam etdirilir. Bunun nəticəsidir ki, qazandığı uğurlarla Azərbaycan regionda aparıcı dövlətə çevrilib. Ötən 17 ilin real mənzərəsi də ondan ibarətdir ki, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycan çox mühüm keyfiyyət dəyişiklikləri yaşayıb: ölkə kompleks inkişaf edib, regionun liderinə və kosmik klubun üzvünə çevrilib, beynəlxalq birlikdə yeri möhkəmlənib, vətəndaşların rifahı yüksəlib.

Heydər Əliyevin qurduğu, İlham Əliyevin daha da möhkəmləndirdiyi Azərbaycan öz tarixinin artıq elə bir mərhələsinə çatıb ki, bu gün respublikamızın təşəbbüsü ilə BMT kimi dünyanın ən mötəbər ali təşkilatının xüsusi sessiyası çağırılır. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin COVID-19-la bağlı BMT-nin xüsusi iclasının keçirilməsi barədə təşəbbüsünün qısa müddətdə 130-dan artıq ölkə tərəfindən dəstəklənməsi Azərbaycanın beynəlxalq miqyasda söz sahibi kimi çıxış edən dövlətlərdən biri olmasının təsdiqidir. Eyni zamanda bu hadisə göstərir ki, Prezident İlham Əliyev qlobal siyasi arenada yüksək nüfuza malik liderlərdəndir. Onu da qeyd edim ki, indiyədək koronavirusla mübarizədə qlobal həmrəyliyə nail olmaq üçün ilk təşəbbüslər məhz Prezident İlham Əliyevdən gəlib. Beləliklə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Zirvə görüşlərindən sonra yenə də İlham Əliyevin təşəbbüsü ilə bu dəfə BMT-nin xüsusi iclası keçirilir.

Hər kəsin birmənalı qəbul etdiyi reallıqlardan biri ondan ibarətdir ki, Prezident İlham Əliyevin müəllifliyi ilə bu gün Azərbaycanın möhtəşəm inkişaf salnaməsinin parlaq səhifələri yazılır. Heydər Əliyevin strateji inkişaf kursunu müasir mərhələyə uyğun zənginləşdirən dövlət rəhbərinin yürütdüyü məqsədyönlü siyasətin uğurları çağdaş Azərbaycanın şanlı tarixinə çevrilir. Azərbaycanın istər daxili inkişafla bağlı, istər regional və beynəlxalq müstəvidə qazandığı hər bir uğur təsdiq edir ki, Heydər Əliyevin ideyaları yaşayır, dövlətimizin inkişafına və qüdrətlənməsinə xidmət edir. Azərbaycan bundan sonra inkişaf yolu ilə inamla irəliləyəcək, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da yüksələcək, qazandığı bütün nailiyyətlərinin miqyasını daha da artıracaq.

***Nəsib MƏHƏMƏLİYEV,***
***Milli Məclisin deputatı***

# 51 il öncə başlanan alternativsiz siyasi yol

Bu gün Ümummilli Lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyə başlamasının 51-ci ili tamam olur. 14 iyul 1969-cu ildən respublikamızda başlanan Heydər Əliyev siyasəti sovet illərində Azərbaycanın yüksəlişinə, sonrakı dövrdə müstəqilliyimizin təmin olunmasına, müasir dövlətimizin yaradılmasına və inkişafına layiqincə xidmət edib.

Milli Məclisin deputatlarının qəzetimizə açıqlamaları da bu barədədir.





## Heydər Əliyevin müəyyən etdiyi inkişaf siyasəti layiqincə davam etdirilir

**Cavid OSMANOV,**
*Milli Məclisin deputatı,*
*YAP Ağdaş rayon təşkilatının sədri:*

- Məzmunundan və mahiyyətindən asılı olmayaraq, istənilən siyasi-iqtisadi və ictimai prosesin xalqın maraqlarına uyğun nəticə verməsi birinci növbədə dövlətin rəhbərinin fəaliyyətindən və qətiyyətindən asılıdır. Lakin mübarizələr yolu keçmiş dövlətlərin, eləcə də Azərbaycanın tarixi göstərir ki, müdrik və uzaqgörən siyasətçilər həm də tarixin gərdişini öz ölkələrinin və xalqlarının ümummilli maraqlarına uyğun dəyişməyi bacarırlar.

Bu gün müasir Azərbaycanda ilk dəfə rəhbərliyə başlamasının növbəti ildönümü tamam olan Heydər Əliyev məhz belə, yəni tarixi inkişaf proseslərinin öx xalqının maraqlarına uyğun təmin etməyi bacaran görkəmli dövlət xadimi idi.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısındakı əvəzolunmaz missiyası 1969-cu ilin 14 iyul tarixindən başlayır. Sovet hakimiyyəti dövrünün məlum tələblərinə, sərt ideoloji rejimə baxmayaraq, Ulu Öndər ilk gündən öz fəaliyyəti ilə mövcud stereotipləri alt-üst etmiş və vətəndaşlar ölkədə pozitiv dəyişikliklərə doğru dönüşün əsasının qoyulduğunu hiss etməyə başlamışdılar. Sovet dövrünün siyasi-ideoloji çətinliklərinə rəğmən Ulu Öndərin tamamilə yeni idarəçilik metodları, problemlərin həllinə fərqli baxışları, mütərəqqi kadr siyasəti ilə ölkənin inkişafına və yüksəlişinə xidmət edən fəaliyyət nümunəsi ortaya qoyması ilk gündən cəmiyyəti ruhlandırmışdı. Tezliklə Azərbaycanda bütün sahələrdə baş verən irəliləyiş, respublikamızın iqtisadi inkişaf göstəricilərinə görə ittifaq miqyasında qabaqcıl yerlərə çıxması nəticəsində ictimaiyyət Heydər Əliyevin əsl quruculuq missiyası ilə xalqa rəhbərliyinin şahidi oldu. Qısa zaman kəsiyində Azərbaycan keçmiş sovet ittifaqının tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrildi. Bu gün də Azərbaycanın iqtisadi həyatına böyük töhfələr verən bir sıra zavod və müəssisələr məhz Heydər Əliyevin uzaqgörənliyi və təşəbbüsləri ilə ölkəmizdə yaradılmışdı.

Xalqımızın böyük oğlu öz tarixi missiyasını yalnız iqtisadi inkişaf məsələləri ilə yekunlaşdırmadı. Ulu Öndər öz misilsiz əməlləri ilə həm də xalqımızı mənəvi yüksəlişə ruhlandırdı. Qeyd etdiyim kimi, sərt sovet ideologiyasına baxmayaraq, xalqımızın milli dəyərlərini, hər bir azərbaycanlının milli heysiyyətini gücləndirmək, şanlı keçmişimizi, soy-kökümüzü unutmamaq üçün mühüm tədbirlər həyata keçirdi.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin 1969-1982-ci illərdə gördüyü işlər gələcəkdə milli dövlətçilik ideyalarının hərəkətverici qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı. Həmin dövrdə respublikada bərqərar edilən əsl işgüzarlıq mühiti, sosial ədalətə əsaslanan sağlam mənəvi-psixoloji ab-hava iqtisadi tərəqqinin yüksək həddə çatmasına, Azərbaycanın keçmiş ittifaq miqyasında nüfuz qazanmasına, hətta beynəlxalq səviyyədə tanınmasına imkan verdi.

SSRİ-nin dağılmasından sonra bütün respublikalar müstəqil oldular. Azərbaycan xalqı isə müstəqilliyə qanı bahasına nail oldu. Digər xalqlardan fərqli olaraq, mərd oğul və qızlarımız bu azadlıq uğrunda canını, qanını verdi. Lakin müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan iqtidarların yarıtmaz siyasəti nəticəsində Azərbaycan yenidən əsarət altına düşməyə, hətta parçalanmağa yaxın idi. Hakimiyyət çəkişmələri torpaqlarımızın azadlığı uğrunda aparılan müharibəni də ikinci plana salmışdı.

Məhz belə bir vaxtda xalqın harayına səs verib hakimiyyət sükanının arxasına keçən Heydər Əliyev növbəti dəfə öz tarixi missiyasını həyata keçirdi. Bəli, məhz Heydər Əliyevin sayəsində Azərbaycanın müstəqilliyi xilas olundu, xalqımızın bir daha əsarət altına düşməsinə imkan verilmədi. Xilaskarlıq, daha sonra isə dövlət quruculuğu missiyasını böyük uzaqgörənliklə, siyasi müdrikliklə yerinə yetirən Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisinə çevrildi.

Bu gün Azərbaycan tarixinin ən parlaq dövrünü yaşayır. Təsadüfi deyil ki, respublikamız iqtisadi imkanlarına görə Cənubi Qafqazın aparıcı dövlətidir. Regionla bağlı bütün qlobal iqtisadi təşəbbüslərin mərkəzində Azərbaycan dayanır, İlham Əliyevin sayəsində bütün tranzit marşrutlar ölkəmizdən keçir.

Ölkəmizin ən mühüm nailiyyətlərindən biri də Prezident İlham Əliyevin Ulu Öndərin müəllifi olduğu neft strategiyasını uğurla davam etdirməsi və yeni mərhələyə qaldırmasıdır. İlham Əliyevin lider qətiyyəti ilə Heydər Əliyevin neft strategiyası məntiqi sonluğuna çataraq Xəzər neftini dünya bazarlarına çıxardı. Bu gün neftdən gələn gəlirlər dövlətimizin inkişafına və xalqımızın rifahının yüksəlməsinə xidmət edir. Eyni zamanda İlham Əliyev Xəzərdən hasil olunan mavi yanacağın Avropa bazarlarına çıxarılmasını təmin etməklə Ulu Öndərin əsasını qoyduğu enerji siyasətini daha da inkişaf etdirir.

İlham Əliyevin həyata keçirdiyi siyasi kurs nəticəsində son 17 ildə Azərbaycanın bütün bölgələri inkişaf edib, abadlaşıb. Ən mühüm nailiyyətlərdən biri də bütün vətəndaşların sosial rifahının dəfələrlə yaxşılaşdırılmasıdır. Nəhayət, son aylarda baş verən koronavirus pandemiyası bir daha göstərdi ki, Azərbaycan, sözün əsl mənasında, güclü dövlətdir. Çünki qlobal reallıqlar təsdiq edir ki, hər dövlət COVID-19-la təkbaşına mübarizə apara bilmir. Bunu 150-dən artıq dövlətin kömək üçün Ümumdünya Səhiyyə Təşkilatına müraciəti də göstərir.

Heydər Əliyevin ən böyük arzuları Azərbaycanın daha güclü dövlətə çevrilməsi, xalqımızın rifahının yüksəlməsi idi. Ulu Öndərin müəyyən etdiyi inkişaf konsepiyasının əsasında da məhz bu amillər dayanırdı. Yuxarıda qeyd olunanlar və ümumilikdə, 2003-cü ildən sonra Azərbaycanda həyata keçirilən siyasətin nəticələri Heydər Əliyevin arzularının və qarşıya qoyduğu vəzifələrin həyata vəsiqə aldığını göstərir. Ölkəmizdəki bütün pozitiv yeniliklər və inkişaf göstərir ki, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inamla gələcəyə doğru addımlayır.

## Tariximizin Heydər Əliyev dövrü

**Müşfiq MƏMMƏDLİ,**
*Milli Məclisin deputatı:*

- İyulun 14-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlişinin 51-ci ildönümü tamam olur. Məhz 1969-cu ilin bu tarixindən gələcəyin qüdrətli Azərbaycan dövlətinin, xalqımızın milli intibahının, sosial tərəqqisinin təməli qoyuldu. Həmin gündən indi barəsində qürur hissi ilə bəhs etdiyimiz Heydər Əliyev epoxası başladı.

Bəli, Ulu Öndərin Azərbaycana rəhbərliyə başladığı həmin gün dövlətçilik tariximizdə dinamik, hərtərəfli inkişaf və intibah mərhələsinin başlanğıcı sayılır. Məhz həmin dövrdən respublikamızda başlanan siyasi kurs, həyata keçirilən işlər Azərbaycanda böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa yol açdı. Sovet rejiminin sərt qanunlarına baxmayaraq, qısa zaman kəsiyində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə, o dövrlərdə digər respublikaların rəhbərlərinin cəsarət etmədiyi, addımlar atıldı. Heydər Əliyevin ölkənin inkişafı naminə təşəbbüsləri, ideyaları, novatorluğu, quruculuq əzmi o dövrün reallıqları ilə müqayisədə ölkədə cəsarətli bir inkişaf siyasətinin başlanması demək idi.

Heydər Əliyevin yüksək təşkilatçılığı, bacarığı, yorulmaz fəaliyyəti sayəsində Azərbaycanda iqtisadiyyatın bütün sahələrində vüsətli dəyişikliklər baş verdi və ölkəmiz ittifaq büdcəsindən dotasiya almadan yaşayan respublikalardan birinə çevrildi. O dövrdə yaradılan güclü iqtisadi potensial bu gün də müstəqil ölkəmizə xidmət edir.

Ulu Öndərin tarixi xidmətləri sayəsində xalqımızın mənəvi dəyərlərinin qorunmasına xidmət edən genişmiqyaslı tədbirlərin həyata keçirilməsi insanlarda milli ruhun və özünüdərkin oyanışını şərtləndirdi. Bu baxımdan Ulu Öndərin sovet hakimiyyəti dövründə Azərbaycana rəhbərliyini ölkəmizin milli-mənəvi yüksəliş mərhələsi kimi də xarakterizə etmək olar. Sözün bütün mənalarında həmin illərdə Azərbaycan xalqı özünə inamını bərpa etdi, manqurtlaşmaqdan, yad mədəniyyətlərin təsirindənn tam xilas oldu. Xalqın milli-mənəvi və mədəni dəyərləri özünə qaytarıldı. Və əlbəttə ki, bütün bunların hamısı Heydər Əliyevin sayəsində mümkün oldu. O zamanlar milli düşüncə sahibi olduqlarına görə təqib edilən ziyalıları ən çətin məqamlarda müdafiə etməyi qanı, canı, bütöv ruhu ilə milli köklərə bağlı olan Heydər Əliyev şəxsiyyəti üzərinə götürə bilərdi.

Tarixi reallıqlar təsdiqləyir ki, 1969-cu ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişi ilə çağdaş tariximizdə keyfiyyətcə yeni epoxanın, inkişaf mərhələsinin və ən əsası Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1970-80-ci illər respublikamızın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil oldu.

Bu gün öz intibahının yeni mərhələsini yaşayan Sumqayıtın da sovet hakimiyyəti dövründə inkişafı və nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyevin böyük qayğısı sayəsində şəhər tarixinin ən əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar Ulu Öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmazdır. Ölkəmizə rəhbərliyi müddətində 16 dəfə Sumqayıtda olan Heydər Əliyevin hər səfəri şəhərin tarixinə mühüm hadisə kimi yazılıb. Ötən il şəhər statusu verilməsinin 70 yaşı tamam olan Sumqayıta məhz Ulu Öndər Heydər Əliyevin birinci dəfə ölkəmizə rəhbərliyi illərində yeni nəfəs verildi.

Azərbaycanın müasir tarixinə nəzər salarkən aydın görünür ki, ölkənin və xalqın ən çətin anlarında Heydər Əliyev ona bəslənilən ümidləri layiqincə doğrulda bilib. Təsadüfi deyil ki, sovet illərində olduğu kimi müstəqillik dövründə də məhz Heydər Əliyevin sayəsindən Azərbaycan bütün təbəddülatlardan xilas olmağı bacardı. Bu mənada ötən ay 27-ci ildönümünü qeyd etdiyimiz Milli Qurtuluş Günü müasir tariximizə Heydər Əliyev epoxasının əlamətdar hadisələrindən biri kimi düşdü. Əgər Ulu Öndər 1993-cü ildə xalqın təkidli çağırışlarını qəbul etməsəydi, indi nə müstəqil dövlətimiz vardı, nə də firavan yaşayışımız. Heydər Əliyev hakimiyyətə qayıdandan müasir Azərbaycan dövlətçiliyini qurdu, yaşatdı. Ulu Öndər ağır döyüşlərin getdiyi cəbhə bölgələrinə, səngərlərə baş çəkirdi, hərbçilərin problemləri ilə yerindəcə tanış olurdu, respublikamızın bütün regionlarına, eləcə də xarici ölkələrə səfərlər edirdi, islahatlar aparırdı, yorulmadan çalışırdı. Bu tükənməz enerji, dərin siyasi təcrübə sayəsində yeni, müasir Azərbaycan dövləti quruldu.

Aradan ötən illər bizə Heydər Əliyev fenomeninin milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini mahiyyəti üzrə daha dərindən dərk etmək imkanı verir. Biz bu gün Azərbaycanın qürurverici yüksəlişindən söz açanda uğurlarımıza yol açan strategiyanın müəllifi olan Ulu Öndər Heydər Əliyevi ehtiramla anırıq. Azərbaycana ilk dəfə rəhbərliyə başlamasının 51-ci ildönümündə biz Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı xidmətlərinə nəzər salır və bir daha görürük ki, tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan dövlətçiliyinin əsaslarının yaradılması, dövlət müstəqilliyimizin təmin olunması və yüksəlişi mərhələsidir.

Bu gün Heydər Əliyev öz ideyaları ilə, xalqımızın və dövlətimizin inkişafına xidmət edən siyasi kursunun davam etdirilməsi ilə milyonların qəlbində yaşayır. Ulu Öndərin müəllifi olduğu inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin nəticəsi olaraq ötən 17 ildə Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmləndirilib, respublikamız beynəlxalq aləmdə nüfuzlu söz sahibinə çevrilib, ölkədə tarazlı və davamlı inkişaf təmin olunub.

Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı kimi Prezident İlham Əliyev bütün sahələrdə inkişafa nail olmaqla Azərbaycanı Ulu Öndərin müəyyən etdiyi hədəflərə çatdırır. Dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsi, Azərbaycanın regionun liderinə, dünya miqyasında isə söz sahibinə çevrilməsi bu siyasətin alternativsizliyini təsdiq edir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# VƏTƏN SƏNƏ OĞUL DEYİR

## Şəhid zabitimiz Biləsuvarda torpağa tapşırılıb



İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində şəhid olan Azərbaycan Ordusunun zabiti, baş leytenant Rəşad Rəşid oğlu Mahmudov doğulduğu Biləsuvar rayonu Aşağı Cürəli kəndində torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin rəsmiləri, şəhidin ailə üzvləri, döyüş yoldaşları, ictimaiyyətin nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını bildiriblər.

Şəhidin anası Sevda Hüseynova oğul itkisinin ağır olmasına baxmayaraq, onun şəhidliyindən qürur duyduğunu bildirib.

Qeyd edək ki, şəhid Rəşad Mahmudov 1992-ci ildə Biləsuvar rayonu Aşağı Cürəli kəndində dünyaya göz açıb. C.Naxçıvanski adına Hərbi Liseyi və H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirdikdən sonra Tovuz rayonundakı "N" saylı hərbi hissədə qulluq edirdi.

## Şəhid əsgərimiz İsmayıllıda dəfn edildi





İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərməsi nəticəsində şəhid olan Azərbaycan Ordusunun əsgəri Xəyyam Məhəmməd oğlu Daşdəmirov iyulun 13-də doğulduğu İsmayıllı rayonunun Balik kəndində torpağa tapşırılıb.

AZƏRTAC xəbər verir ki, şəhid Xəyyam Daşdəmirov 2002-ci ildə dünyaya gəlib, hərbi xidmətə 2020-ci ilin aprel ayında çağırılıb. Tovuz rayonundakı "N" saylı hərbi hissədə qulluq edirdi. Düşmən hücumunun qarşısını alarkən ağır yaralanan X.Daşdəmirov həkimlərin səyinə baxmayaraq, şəhidlik zirvəsinə ucalıb.

Dəfn mərasimində rayonun icra hakimiyyətinin rəhbərliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və digər dövlət strukturlarının rəhbər heyətləri, habelə rayon sakinləri iştirak ediblər.

## Ağstafalı şəhid torpağa tapşırılıb



İyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutublar. Mənfur erməni silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alarkən 4 nəfər hərbi qulluqçumuz şəhid olub.

AZƏRTAC xəbər verir ki, onlardan biri Ağstafanın Yuxarı Göycəli kənd sakini, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Sadıqov Vüqar Lətif oğludur.

Vüqar Lətif oğlu Sadıqov 1987-ci ildə dünyaya gəlib. O, orta məktəbi bitirdikdən sonra əsgər kimi Azərbaycan Ordusunda xidmət edib, 2014-cü ildən etibarən Azərbaycan Silahlı Qüvvələrində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi fəaliyyətə başlayıb. Şəhidin yadigar 3 azyaşlı övladı - 2 qızı, bir oğlu qalıb.

İyulun 13-də şəhid çavuşumuzun izdihamlı dəfn mərasimi keçirilib.

Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, kənd sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları mərasimdə iştirak ediblər.

Mərasimdə çıxış edənlər qüdrətli Azərbaycan Ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını, Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini gözlədiklərini bildiriblər.

Şəhidin atası Lətif Sadıqov oğul itkisinin ağır olmasına baxmayaraq, onun şəhidliyindən qürur duyduğunu bildirib.

Şəhid çavuş Yuxarı Göycəli qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycanın üçrəngli bayrağı şəhidin oğluna təqdim edilib.

## Düşmən hücumunun qarşısı alınarkən hərbi qulluqçularımız şəhid olublar

İyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə artilleriya atəşindən istifadə edərək hücuma keçməyə cəhd göstərib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmən hücumunun qarşısını alarkən döyüşdə Azərbaycan Ordusunun hərbi qulluqçuları müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş Sadıqov Vüqar Lətif oğlu və baş əsgər Məmmədov Elşad Dönməz oğlu şəhid olublar.

Həkimlərimizin səylərinə baxmayaraq, ağır yaralanan hərbi qulluqçumuz əsgər Daşdəmirov Xəyyam Məhəmməd oğlu da şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhid olanların ailələrinə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

## Azərbaycan Ordusunun bölmələri düşmənin dayaq məntəqəsinə zərbə endiriblər

Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində iyulun 13-nə keçən gecə ərzində də gərginlik davam edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində bölmələrimizin dəqiq atəşi ilə düşmənin dayaq məntəqəsi, artilleriya qurğuları, hərbi hissə ərazisində avtomobil texnikası və canlı qüvvəsi məhv edilib.

Döyüşdə Azərbaycan Ordusunun hərbi qulluqçusu baş leytenant Mahmudov Rəşad Rəşid oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə başsağlığı verir və səbir diləyir. Allah rəhmət eləsin!

Hazırda əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır. Düşmənə qarşı cəza tədbirləri həyata keçirilir. Düşmən tərəfi itkiləri barədə məlumatları gizlədir.

## Düşmən Naxçıvan istiqamətində də atəşkəs rejimini kobudcasına pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri iyulun 12-si saat 22:45-dən etibarən iyulun 13-ü saat 00:40-dək iriçaplı silahlardan da istifadə etməklə Şahbuz və Culfa rayonları istiqamətində müdafiə olunan mövqelərimizi atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin atəşkəs rejimini pozması zamanı əsasən izburaxan və yandırıcı mərmilərdən istifadə etməsi ara boşluğunda olan 5 hektara qədər ərazinin yanması ilə nəticələnib.

Düşmən cavab atəşi ilə susdurulub. Əməliyyat şəraiti qoşunlarımızın tam nəzarəti altındadır.

## Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışı Türkiyə KİV-i tərəfindən geniş işıqlandırılıb

İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışının əsas müddəaları Türkiyə KİV-i tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi, "CNN TÜRK" televiziya kanalı və digər mətbuat orqanları Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə hücum cəhdi səbəbindən Təhlükəsizlik Şurasının iclasının çağırılmasına diqqət çəkiblər.

"Azərbaycan Prezidenti: Ermənistanın bütün cəhdləri iflasa uğradı" sərlövhəli xəbərdə əvvəlcə türkdilli oxuculara sözügedən münaqişənin tarixi və nəticələri barədə məlumat verilir. Yazının "Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməyiblər" və "Əsgərlərimizin intiqamı alındı və bundan sonra da alınacaq" altbaşlıqları ilə təqdim olunan hissələrində isə Prezident İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışının mühüm məqamlarından bəhs olunur.

Diqqətə çatdırılır ki, Azərbaycanın beynəlxalq arenada sürətlə yüksələn nüfuzundan narahatlıq keçirən Ermənistan rəhbərliyi ölkədəki sosial-iqtisadi böhrandan ictimaiyyətin diqqətini yayındırmaq istəyir. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparır.

## KTMT-nin Daimi Şurasının təcili iclası təxirə salınıb

Ermənistan-Azərbaycan sərhədində vəziyyətin kəskinləşməsi ilə əlaqədar olaraq Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Daimi Şurasının təcili iclası təxirə salınıb. AZƏRTAC xəbər verir ki, bunu "RİA Novosti" Agentliyinə KTMT-nin mətbuat katibi Vladimir Zaynetdinov bildirib.

Xatırladaq ki, bundan əvvəl təşkilatın baş katibi Stanislav Zas Ermənistanla Azərbaycan sərhədində vəziyyətlə əlaqədar iyulun 13-də KTMT-nin Daimi Şurasının təcili iclasının keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi.

V.Zaynetdinov deyib: "KTMT-nin Daimi Şurasının iclasının keçirilməsi Ermənistan-Azərbaycan sərhədində vəziyyətin müzakirə formatının müəyyən edilməsi üçün üzv dövlətlərlə əlavə məsləhətləşmələr aparılması zərurəti ilə əlaqədar təxirə salınıb.

## İtaliya parlamentariləri Ermənistanın təxribatını pisləyən və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar veriblər

İtaliyanın nüfuzlu parlament üzvləri, Senatın Xarici əlaqələr daimi komissiyasının sədri, senator Vito Petroçelli, İtaliyanın ATƏT Parlament Assambleyası yanında nümayəndə heyətinin sədri və Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasının sədr müavini, deputat Paolo Qrimoldi, eləcə də İtaliya Parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Qrupunun sədri, senator Stefano Luçidi və İtaliya Parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, deputat Rossana Boldi Ermənistan silahlı qüvvələrinin iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində təxribatlarını pisləyən və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlar veriblər.

AZƏRTAC xəbər verir ki, İtaliya Respublikası Senatının Xarici əlaqələr daimi komissiyasının sədri, senator **Vito Petroçellinin** bəyanatında deyilir:

"Avropanın kandarında çox təhlükəli müharibənin yenidən alovlanması təhlükəsi mövcuddur: 1990-cı illərin əvvəllərində otuz mindən çox insanın ölümünə və bir milyon insanın məcburi köçkün vəziyyətinə düşməsinə səbəb olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi. Dünən artilleriyadan istifadə etməklə baş verən şiddətli silahlı qarşıdurmalar 1994-cü ildə əldə edilmiş atəşkəs rejiminin ciddi şəkildə pozulmasıdır və bir müddətdir ki, dalana dirənmiş danışıqların yenidən bərpa edilməsinə böyük maneədir. Rəsmi Bakı Ermənistan tərəfinin hərbi təxribatları barədə məlumat verir və rəsmi İrəvanın uzun müddətdir ki, danışıqları əngəllədiyini bildirir. Atəşkəs rejiminə, beynəlxalq hüququ və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən, eləcə də Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdən erməni qoşunlarının çıxarılmasını tələb edən BMT-nin 1993-cü ildə qəbul etdiyi dörd qətnaməsinə hörmət edilməsinə çağırıram. Beynəlxalq ictimaiyyət vəziyyətin yeni bir müharibə ocağına çevrilməməsi üçün ən qısa zamanda müdaxilə etməlidir".

İtaliyanın ATƏT Parlament Assambleyası yanında nümayəndə heyətinin sədri, Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasının sədr müavini, deputat **Paolo Qrimoldinin** bəyanatında deyilir:

"Tovuz rayonunda, Dağlıq Qarabağ bölgəsinin şimalında Ermənistan-Azərbaycan sərhədi boyunca silahı qarşıdurmalarla bağlı xəbərləri təəssüflə öyrənirəm. Xatırlatmaq vacibdir ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri (İtaliyaya neft təchiz edən boru) və Cənubi Qafqaz qaz boru kəməri Tovuz ərazisindən keçir və qeyri-sabitlik Avropaya da öz ağır təsirini göstərəcəkdir. Təxribatlar və qarşıdurmalar həll yolu deyildir. Dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, eləcə də BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrindən irəli gələrək tərəflərin mümkün qədər qısa zamanda ATƏT-in himayəsi altında danışıqlar masasına qayıtması üçün İtaliyanın səylərinə ümid edirəm".

İtaliya Parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Qrupunun sədri, senator **Stefano Luçidi** və İtaliya Parlamentində Azərbaycanla Parlamentlərarası Dostluq Assosiasiyasının sədri, deputat **Rossana Boldi** də birgə bəyanat veriblər. Həmin birgə bəyanatda qeyd olunur:

"Ermənistan və Azərbaycan sərhədi boyunca, şimal istiqamətində baş verən qarşıdurmaları böyük narahatlıqla izləyirik. İnanırıq ki, hər hansı silahlı qarşıdurmalar həll yolu deyildir, dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının tanınması, eləcə də BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli qətnamələrini əsas götürərək dialoq yolu ilə həllin vacibliyini bir daha bildiririk. Beləliklə, ATƏT-in himayəsi altında hər iki tərəfin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığının dəstəklənməsi və gücləndirilməsi ilə bağlı tərəfləri danışıqlar masasına gəlməyə təşviq etmək üçün İtaliya Hökumətinə müraciət edirik. ATƏT-in Minsk qrupunun üzvü kimi bizim ölkə münaqişənin həmişə siyasi həllinin tərəfdarı olub. Bu yanaşma, 20 fevral tarixində imzalanmış "Azərbaycan və İtaliya arasında Çoxölçülü Strateji Tərəfdaşlığın Gücləndirilməsinə dair Birgə Bəyannamə" ilə də təsdiq edilib."

Parlamentarilərin bəyanatları İtaliyanın müxtəlif kütləvi informasiya vasitələri, o cümlədən "Polticamente Corretto", "Politica News", "Finanze Yahoo", "Agenzia Nova" kimi xəbər saytlarında, habelə müvafiq sosial media şəbəkələrində dərc olunub.

## Vətən uğrunda şəhid olan oğullarımızın qanı yerdə qalmayacaq

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) Ermənistan silahlı qüvvələrinin Tovuz istiqamətində sərhəd zonasında törətdikləri təxribatla əlaqədar bəyanat yayıb.

Bu barədə AZƏRTAC-a AHİK-in Mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: "İyul ayının 12-də Ermənistan silahlı qüvvələri tərəfindən Tovuz rayonu istiqamətində sərhəd xəttində törədilən təxribat Azərbaycan Həmkarlar İttifaqlarının çoxsaylı üzvlərinin dərin hiddətinə səbəb olub. Təxribatın Dağlıq Qarabağ bölgəsinə aid olmayan ərazidə baş verməsi onun çirkin mahiyyətindən, erməni tərəfinin təmas xəttində süni gərginlik yaratmaq niyyətindən xəbər verir. Öz ölkəsinin daxilində bütün dayaqlarını itirən Ermənistanın diktatura rejiminin cəbhədə təxribatlar yaratmaqla xalqın qəzəbindən yayınmağa çalışması yeni taktika deyil. Azərbaycanın Silahlı Qüvvələri, qəhrəman əsgərlərimiz səbəblərindən asılı olmayaraq cəbhə xəttində erməni tərəfinin törətdiyi hər bir təxribata həmişə layiqincə cavab verib, ağır zərbələrlə düşməni yerində oturdub.

Tovuz istiqamətində erməni təxribatı üzündən baş verən döyüşlər Azərbaycan Ordusunun döyüş qüdrətinin, mənəvi, psixoloji üstünlüyünün, əsgər və zabitlərimizin qəhrəmanlığının, döyüş şücaətinin yeni nümunəsi sayıla bilər. Silahlı Qüvvələrimiz Ali Baş Komandanımızın müdrik rəhbərliyi altında istənilən erməni təxribatının anındaca qarşısını almağa, torpaqlarımızın hər qarışını qorumağa tam hazır olduğunu bir daha nümayiş etdirdi.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası olaraq daim qəhrəman Ordumuzla bir olduğumuzu bəyan edirik. Ali Baş Komandanımız İlham Əliyev əmin ola bilər ki, onun əmri ilə Vətən yolunda fədakarlıq və qəhrəmanlıq göstərməyə hər an hazırıq. Silahlı Qüvvələrimizin düşmənin istənilən təxribatına bundan sonra da layiqli cavab verəcəyinə, işğal altında olan torpaqlarımızı azad edəcəyinə, Vətən yolunda həlak olan bütün şəhidlərimizin qanını yerdə qoymayacağına dərindən inanırıq.

## Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib

İyulun 13-də Milli Məclisin Elm və təhsil komitəsinin növbəti onlayn iclası keçirilib. Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Komitənin sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə "Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Elm və təhsil komitəsində görülən işlər barədə hesabat" və cari məsələlər daxil edilib.

Qeyd olundu ki, Azərbaycan Prezidenti İlham Əliyevin VI çağırış Milli Məclisin ilk iclasındakı proqram xarakterli çıxışını, tövsiyələrini rəhbər tutan komitə üzvləri hesabat dövründə geniş fəaliyyət göstəriblər. Milli Məclisə Sədr seçilən xanım Sahibə Qafarovanın parlamentdə yaratdığı demokratik ab-hava deputatları ruhlandırıb. Hesabat dövründə Elm və təhsil komitəsinin 9 iclası keçirilib, 17 məsələyə baxılıb. Yaz sessiyası və növbədənkənar sessiyalar dövründə komitənin qanunvericilik fəaliyyəti məhsuldar olub. Belə ki, komitə üzvləri "Elm haqqında", "Təhsil haqqında", "Peşə təhsili haqqında", "Lisenziyalar və icazələr haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Məktəbəqədər təhsil haqqında", "Ümumi təhsil haqqında", "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında", "Psixiatriya yardımı haqqında", "Gənclər siyasəti haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Sosial xidmət haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Mədəniyyət haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və bir sıra digər qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihələrini müzakirə edərək plenar iclasa tövsiyə ediblər.

Bəxtiyar Əliyev bildirib ki, komitə üzvləri ümumtəhsil müəssisələri üçün dərsliklərin hazırlanması prosesində də səylərini əsirgəməyiblər. Bu ilin aprelində Təhsil Nazirliyi tərəfindən Milli Məclis Aparatına daxil olmuş məktuba əsasən, komitənin sədr müavini Musa Qasımlı, komitə üzvlərindən Aqiyə Naxçıvanlı, Ceyhun Məmmədov, Rafael Hüseynov, Kamilə Əliyeva və Etibar Əliyev "2020/2021-ci il tədris ilinə ölkənin dövlət ümumi təhsil müəssisələrinin I, V, VIII və IX sinif şagirdləri üçün yeni və təkmilləşdirilmiş dərslik komplektləri (dərslik və metodik vəsait) layihələri"nə dair rəy və təkliflərini hazırlayaraq təqdim ediblər.

Onlayn iclasda vurğulanıb ki, hesabat dövründə komitəyə 149 ərizə və müraciət daxil olub. Onlardan 130-u ilə əlaqədar 91 məktub hazırlanıb və aidiyyəti üzrə müvafiq qurumlara göndərilib. Müraciətlərdə əsasən işlə təmin olunma məsələləri, ödənişli təhsillə bağlı qarşıya çıxan çətinliklər, tələbələrin digər təhsil müəssisəsinə köçürülməsi və təhsil müəssisələrinə bərpası, xaricdə təhsil almış məzunların diplomlarının ölkədə tanınması (nostrifikasiyası), mənzil məsələləri, sosial müavinətin verilməsi, xəstələrin müalicəsi üçün maddi yardım göstərilməsi, əfv məsələləri və s. üstünlük təşkil edib.

İclasda iştirak edən komitə sədrinin müavini Musa Qasımlı, deputatlar İsa Həbibbəyli, Aqiyə Naxçıvanlı, Rafael Hüseynov, Ülviyyə Ağayeva, Tamam Cəfərova, Etibar Əliyev, Kamilə Əliyeva, Afət Həsənova, Anar İsgəndərov, Pərvin Kərimzadə, Eldar Quliyev, Ceyhun Məmmədov, Müşfiq Məmmədli, Şahin Seyidzadə və Fatma Yıldırım hesabata müsbət münasibət bildiriblər.

Cari məsələlərin müzakirəsində COVID-19-la bağlı təhsil sahəsində yaranmış vəziyyət, Ermənistanla təmas xəttində vəziyyət və digər aktual məsələlər barədə fikir mübadiləsi aparılıb.

## *DTX:* Dövlət əleyhinə yönələn açıq çağırışlar etməkdə şübhəli bilinən sabiq Müdafiə naziri Rəhim Qazıyev saxlanılıb

Məlum olduğu kimi, 2020-ci il iyulun 12-də Ermənistanın silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından mövqelərimizi atəşə tutublar. Görülən adekvat tədbirlər nəticəsində düşmənə ağır zərbə endirilib və o, ciddi itkilər verərək geri oturdulub. Düşmən təxribatlarının qarşısı alınarkən Azərbaycan Ordusunun şəhid olmuş hərbi qulluqçularının ailələrinə dərin hüznlə başsağlığı verir, yaralılara tez bir zamanda sağalmaları üçün şəfa diləyirik.

Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, cəbhədə baş vermiş döyüşlər zamanı xalqımızın hər zaman olduğu kimi nümayiş etdirdiyi milli həmrəylik və birliyindən, vətəndaş-dövlət vəhdətindən narahat olan düşmən dairələr və antimilli qüvvələrin respublikada ictimai-siyasi sabitliyi, əmin-amanlığı pozmağa, dövlətin, onun ordusunun və digər strukturlarının sistemli fəaliyyətinə zərbə vurmağa uğursuz cəhdləri müşahidə edilməkdədir. Bir qrup şəxs öz çirkin niyyətlərini yerinə yetirmək üçün dövlət sərhədində baş vermiş düşmən təxribatlarından sui-istifadə edərək Silahlı Qüvvələrimizi, Azərbaycan əsgərini, həmçinin hakimiyyət və hüquq-mühafizə orqanlarını gözdən salmaq, onlara inamsızlıq yaratmaq, Azərbaycan Respublikasının müdafiə qabiliyyətinə xələl gətirmək məqsədilə sosial media səhifələrində əhali arasında çaşqınlıq, ölkədə qarışıqlıq yaratmağa yönələn məlumatlar yaymağa başlamış və dövlət əleyhinə açıq çağırışlar ediblər.

İyulun 12 və 13-də sabiq Müdafiə naziri Rəhim Qazıyevin Azərbaycan-Ermənistan sərhədində düşmənin təxribatları ilə bağlı döyüş əməliyyatlarının aparıldığı və bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən ictimaiyyətə müntəzəm rəsmi məlumatlar verildiyi bir vaxtda məqsədyönlü şəkildə sosial şəbəkələr vasitəsilə hadisələrin mahiyyəti barədə aşkar surətdə həqiqətə uyğun olmayan xəbərlər yayıb Azərbaycan Respublikasının müdafiə qabiliyyətini zəiflətməyə yönələn hərəkətlər edərək, insanları iğtişaşlara, dövlət hakimiyyətini zorla ələ keçirməyə açıq çağırışlar etməklə təxribat törətməsinə əsaslı şübhələr müəyyən olunub.

Rəhim Qazıyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 282-ci (Təxribat) maddələri ilə başlanılmış cinayət işi üzrə şübhəli şəxs qismində saxlanılıb.

Azərbaycan Respublikasının informasiya sahəsində milli maraqlarına, həmçinin "Dövlət sirri haqqında", "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının qanunlarının və digər qanunvericilik aktlarının tələblərini qəsdən pozaraq dövlət sirri təşkil edən, ölkəmizin müdafiə potensialına, Silahlı Qüvvələrimizin və ordumuzun döyüş qabiliyyətinə zərər vuran dəqiqləşdirilməmiş, qərəzli, ictimai rəyi çaşdırmaq məqsədi güdən məlumatların yayılması yolverilməzdir.

Eyni zamanda bir daha diqqətə çatdırılır ki, Azərbaycan Respublikasının milli mənafelərinin və təhlükəsizliyinin qorunmasında xalqın həmrəyliyi sarsılmazdır, düşmən həmlələrinə, anti Azərbaycan qüvvələrə və onların maraqlarına xidmət edənlərin xaos, anarxiya və təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınmışdır və bundan sonra da qətiyyətlə alınacaq.

Hazırda Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

## Biz birlikdə güclüyük!

# Karantin rejimi ilə bağlı qaydalar hər birimiz üçün əsas olmalıdır

### Prezident İlham ƏLİYEV: "Heç kim qanundan üstün deyil"

Həyata keçirilən çoxsaylı və çoxşaxəli tədbirlərə baxmayaraq, koronavirus pandemiyası bütün dünyanı dolaşmaqda və yeni faciələr gətirməkdədir. Tarix boyu pandemiyalardan əsasən az inkişaf etmiş ölkələr zərər çəkib. Lakin COVID-19 dünyanın ən güclü dövlətlərinə də zərbə endirib, həm minlərlə insanın həyatını yarımçıq qoyub, həm də sosial-iqtisadi sahəyə olduqca mənfi təsir göstərib. Azərbaycan dövləti ilk gündən pandemiyanın qarşısını almaq üçün bütün qabaqlayıcı tədbirləri görüb. Vəziyyət bu gün də dövlətin, şəxsən Prezident İlham Əliyevin nəzarətindədir.




Prezidentimiz pandemiyanın əvvəlindən bəyan etdi ki, dövlətimiz üçün öncə Azərbaycan vətəndaşıdır, onun sağlamlığı və rifahıdır. Ötən aylarda bütün bunlar dönə-dönə öz təsdiqini tapıb. Ölkəmizdə insanlar hərtərəfli qayğı ilə əhatə olunublar. Bu, həm onların müalicəsinə, həm maddi güzəranına aiddir. İnsanlara, eləcə də mənəvi dəstək göstərilir, qocalar, tənhalar bir gün belə unudulmur.

Deyilənlərin hamısı hər kəsə məlum olan həqiqətdir. Yalnız onu xatırlatmaq kifayətdir ki, bu gün koronavirusa yoluxmuş vətəndaşlarımız ölkənin 45 xəstəxanasında müalicə alır. Son aylarda "Yeni klinika" kimi böyük tibb müəssisəsi, 6 modul xəstəxana istifadəyə verilib. Fevral ayında test aparmaq üçün ölkədə cəmi 6 laboratoriya olduğu halda, hazırda onların sayı 29-a çatıb. Daha 15 yeni laboratoriya sifariş edilib. İndiyə qədər 500 mindən çox test aparılıb və adambaşına düşən testlərin sayına görə Azərbaycan dünyada təqribən 40-cı yerdədir. Unutmayaq ki, dünyanın bir sıra öz nailiyyətləri ilə öyünən ölkəsində xəstələr lazımi müalicə və qayğı ilə əhatə oluna bilmirlər, bəzi hallarda hətta taleyin ümidinə buraxılırlar.

Müdrik Azərbaycan xalqı həmişə olduğu kimi, yenə də öz dövləti və Prezidenti ilə birlikdədir. Təsadüfi deyil ki, pandemiya ilə mübarizədə "Gücümüz birlikdədir!" sözləri şüarımıza, amalımıza çevrilib.

Lakin çox təəssüf ki, bəzi insanlar nədənsə vətəndaş həmrəyliyi nümayiş etdirmirlər. Onlar xəstəlikdən qorunmaq üçün, özləri də yoluxmamaq və başqalarını da yoluxdurmamaq üçün qoyulan qaydalara əməl etmirlər. Bəziləri özlərini çox biganə apararaq pandemiyaya inanmadıqlarını söyləyirlər. Bəziləri də sinələrinə döyərək deyirlər ki, korona məni tutmaz. Bəlkə də belə deyənlərdən kimsə doğrudan da təsadüfən yoluxmaya bilər. Amma ifadəyə görə üzr istəyib deyərdik ki, belələrinin təcili surətdə psixika ilə bağlı xəstəliklərdən müalicəyə ehtiyacı var. Əks halda onlar dünyanı bürüyən pandemiyanı necə inkar edə bilərlər? Bu, ilk növbədə, koronavirusdan dünyasını dəyişən, hazırda ondan əziyyət çəkən qardaş və bacılarımıza, onların həyatı uğrunda mübarizə aparan həkimlərə, bütün xalqa hörmətsizlikdir.

Hamıdan dəfələrlə xahiş olunub ki, gigiyenik qaydalara əməl etsinlər, maska taxsınlar və sosial məsafə saxlasınlar. Əksəriyyət bu qaydalara riayət etsə də, burada da istisnalar yox deyil.

1 saylı Gəncə Şəhər Xəstəxanasının modul tipli infeksion xəstəliklər korpusunun açılışında iştirak edərkən dövlət başçısı bu barədə demişdir: "Ancaq son müddətin dinamikası göstərir ki, bizim bütün tələblərimizə baxmayaraq, bəzi insanlar məsuliyyətsizlik göstərərək elementar qaydalara əməl etmirlər. Bu qaydalar haqqında artıq bəlkə min dəfə deyilib. Həm mən demişəm, həkimlər deyib, tibb mütəxəssisləri deyib, müxtəlif insanlar deyib. Təkcə Azərbaycanda yox, bütün dünyada bu qaydalar çox sadədir və onlara əməl etmək o qədər də böyük əziyyət tələb etmir - maska, məsafə və dezinfeksiya. Bu üç əsas amil insanları qoruyur. Əgər bu üç amilə əməl olunarsa, onda yoluxmanın sayı kəskin azalacaq. Ancaq biz nəyi görürük? Onu görürük ki, yumşalma tədbirlərindən sonra Azərbaycanda bu qaydalar kütləvi surətdə pozulur və məhz buna görə biz yenidən məhdudlaşdırıcı tədbirləri tətbiq etdik. Çünki görürdük ki, xəstələnənlərin sayı, dinamikası artır və əgər belə gedərsə, bizim də səhiyyə sistemimiz buna davam gətirə bilməz. Ona görə bu həftənin əvvəlindən Bakı şəhərində və bir neçə digər şəhərlərdə daha da sərt karantin rejimi tətbiq edilir. Bunun əsas və yeganə səbəbi odur ki, əfsuslar olsun, bəzi insanlar elementar qoruyucu qaydalara əməl etmirlər. Bu sərtləşdirilmiş rejim nə qədər davam edəcək, bunu həyat və koronavirusun yayılması göstərəcək".

Lakin tələblərə, ictimai qınağa, hətta cərimələrə belə baxmayaraq, bəzi insanlar, o cümlədən gənclər yenə də laqeydlik və eqoistlik edərək qaydalara tabe olmurlar. Sərt karantin günlərində evin damına çıxıb kabab çəkənlərin, məşhur bir hoteldə "sığınacaq" tapıb şənlənənlərin hərəkətinə nə ad vermək olar?

Bugünlərdə Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında dövlət başçısı 3 televiziya kanalının jurnalistlərinin suallarını cavablandırarkən qoyulmuş qaydaların bəzi insanlar tərəfindən pozulması mövzusuna yenə də toxunmuşdur: "Xəstəliyin yayılmasının başlıca səbəbi bəzi insanların məsuliyyətsizliyidir. Onlar sadə qaydaları gözləmirlər, bunlara əməl etmirlər. Ona görə biz məcbur olub cərimələri artırdıq. Bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmağa məcbur oluruq. Ancaq onlar da öz məsuliyyətini dərk etməlidirlər. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Amma biz görürük ki, insanlar bu rejimi nümayişkaranə pozurlar... Polis orqanlarına mənim tərəfimdən çox ciddi göstəriş verilibdir ki, bütün pozuntulara adekvat reaksiya verilməlidir. Heç kim qanundan üstün deyil - istər yerli, istər xarici şirkət, istər yerli vətəndaş, istər xarici vətəndaş olsun, fərq etmir, biz xalqımızı qorumalıyıq, biz xalqımızın sağlamlığını qorumalıyıq. Eyni zamanda mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Ona görə biz bundan sonra da bu istiqamətdə addımlarımızı atacağıq".

Hər bir insanın kimliyi - hansı məqsədə-məramа xidmət etdiyi, daxili dünyası, nəyə qadir olduğu çətin gündə üzə çıxır. Əsl vətəndaşın dövlətinə, xalqına münasibəti də bu vaxt bəlli olur. Pandemiyanın ölkənin iqtisadiyyatına mənfi təsirindən, neftin qiymətinin aşağı düşməsindən sevinənlər, görəsən, özlərini vətəndaşmı sayırlar? Prezidentimiz onların əsl adını demişdir, onları haqlı olaraq düşmən adlandırmışdır. Özünü müxalifət adlandıran həmin antimilli şura dövlət başçısından olduqca tutarlı cavab almışdır: "Hesab edirəm ki, bu gün neftin qiymətinin düşməsinə sevinən bir Ermənistandır, bir də özünü müxalifət adlandıran antimilli şura. Çünki hər ikisi Azərbaycan dövlətçiliyinə düşmənçilik hissləri ilə yaşayır. Bunu Azərbaycan xalqı bilməlidir. Amma mən demişəm, neftin qiyməti hətta 14 dollar da olsa, biz ayaqda duracağıq. Çünki biz son illər ərzində o qədər böyük iqtisadi-maliyyə potensialı yaratmışıq ki, istənilən böhranla bacara biləcəyik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Azərbaycanın bütün resursları koronavirusla mübarizəyə səfərbər olunub

### Ölkədə həyata keçirilən tədbirlərin əsas məqsədi yalnız Azərbaycan vətəndaşlarının həyatını qorumaqdır

İkinci minilliyin 20-ci ili müasir dünyanı heç vaxt qarşılaşmadığı vəziyyətlə - COVID-19 kimi sürətlə yayılan, sərhəd tanımayan ölümcül bir virusla üz-üzə qoydu. İnkişaf səviyyəsindən, müasir səhiyyə və güclü iqtisadiyyatından asılı olmayaraq, dünyanın heç bir ölkəsi qlobal pandemiyaya hazır deyildi. Üstəlik, COVID-19 yeni virus olduğu üçün "xasiyyəti" də elmə tam məlum deyildi. Virusu öyrəndikcə hər dəfə onun təzə xüsusiyyətləri meydana çıxdı, iki ay əvvəlki fikirlər bəzən təsdiqini tapmadı. Bununla belə, koronavirusla mübarizədə keçən yarım il ərzində dünya ölkələri epidemiyanı idarə etməyi, COVID-19-a nəzarəti öyrəndi, mübarizə sahəsində təcrübə qazandı. Dövlətlər virusa yoluxma hallarının inkişaf dinamikasına uyğun olaraq sərt, yaxud yumşaldıcı tədbirlər həyata keçirməyə başladılar. Azərbaycan hökuməti də hadisələrin inkişaf dinamikasına uyğun qərarlar qəbul etdi.

Hələ yoluxma hallarının nisbətən aşağı olduğu, xüsusi karantin tədbirlərinin gerçəkləşdirildiyi dönəmdə ölkənin səhiyyə sistemi, iqtisadiyyatı, sosial sferası pandemiya ilə mübarizəyə hazırlandı. Qısa zamanda koronavirusa yoluxmuş xəstələrin müalicəsi üçün xəstəxanalar ayrıldı, yeni tibb müəssisələri istifadəyə verildi, modul tipli xəstəxanalar inşa edildi, onların bütün texniki ləvazimat, avadanlıq, dərman preparatları ilə təminatı həyata keçirildi, koronavirusu aşkarlayan testlər, müasir laboratoriyalar alındı, ölkəyə süni nəfəs aparatları gətirildi. Tibbi maska, eləcə də digər ləvazimat və geyimlər, dezinfeksiya, sanitariya-gigiyena və digər bu kimi məhsullar istehsal edən müəssisələr yaradıldı. İqtisadiyyatın tənəzzülünün qarşısını almaq, milli valyutanın dayanıqlılığını qorumaq üçün tədbirlər həyata keçirildi, kütləvi psixozun, ajiotajın yaranmaması üçün bir sıra maarifləndirici və istiqamətləndirici addımlar atıldı. Pandemiya ilə mübarizədə mühüm əhəmiyyət kəsb edən xüsusi karantin rejiminin tətbiqi, qaydalara əməl olunması, cəmiyyətdə süni təşviş yarada biləcək halların qarşısının alınması üçün hüquqi baza formalaşdırıldı, konsepsiyalar hazırlandı və həyata keçirilməsinə başlanıldı. Bir sözlə, qısa vaxt ərzində ölkənin bütün resursları koronavirusla mübarizəyə səfərbər olundu. Dövlətimiz COVID-19-la mübarizəyə vaxtında başladı və bu istiqamətdə görülən tədbirlər effektini göstərdi. Məhz dövlət tərəfindən vaxtında atılan mühüm addımlar, məhdudlaşdırıcı tədbirlər, karantin rejiminin tətbiqi ölkədə koronavirusa kütləvi yoluxma hallarının qarşısını aldı.

### Dövlət üçün heç bir səbəb əhalinin sağlamlığından öndə deyil

Hazırda bütün dünya pandemiya ilə mübarizə aparır, iqtisadi tənəzzülün qarşısının alınması, böhranın daha da dərinləşməməsi üçün çoxsaylı tədbirlər həyata keçirir, insanların ölümcül COVID-19 virusunun qurbanına çevrilməmələri üçün sərt məhdudlaşdırıcı addımlar atır. Mayın əvvəlindən həyata keçirilən yumşalma tədbirləri nəticəsində ölkəmizdə yeni növ koronavirusa yoluxma hallarının sürətlə artması da hökuməti zəruri addımlar atmaq məcburiyyəti qarşısında qoydu və sərtləşdirilmiş karantin rejimi uzadıldı. Ölkəmizdə həyata keçirilən bütün tədbirlərin əsas məqsədi, hədəfi yalnız Azərbaycan vətəndaşlarının həyatını, sağlamlıqlarını qorumaqdır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bizim üçün ön sırada insanların sağlamlığı dayanır. Azərbaycan dövləti üçün heç bir səbəb əhalinin sağlamlığından öndə ola bilməz. Vətəndaşların çoxu bu tədbirlərin mahiyyətini yaxşı başa düşür və dəstəkləyir.

Lakin təəssüf ki, hələ də xəstəliyə etinasız yanaşan, yalnız özünün deyil, ətrafının da sağlamlığına biganə münasibət sərgiləyən insanlar var. Evdən çıxması qəti qadağan olunduğu halda, parka, marketə gedərək sağlam insanların da həyatını riskə atan COVID-19 xəstələri, ziyafət təşkil edən şəxslər... Təbii ki, belə hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmaq məcburiyyəti yaranır, polis orqanları tərəfindən bütün pozuntulara adekvat reaksiya verilir.

### Karantin rejimini pozanlar inzibati qaydada məsuliyyətə cəlb olunurlar

Quba Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlər nəticəsində rayonun Növdün kənd sakini Bəhruz Nəğdəliyev oğlunun hərbi xidmətdən qayıtması münasibətilə həyətində məclis təşkil etdiyi müəyyənləşib. Polis əməkdaşları tərəfindən məclis dərhal dayandırılıb. Məclisin təşkilatçısı və həmin vaxt orada iştirak edən 12 şəxs barəsində karantin qaydalarının pozulmasına görə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib edilib və onlar cərimə olunublar.

Analoji qayda pozuntusunun qarşısı Xaçmaz Rayon Polis Şöbəsinin Xudat Polis Bölməsinin əməkdaşları tərəfindən də alınıb. Bölmə əməkdaşları şəhər ərazisində xidmət aparan zaman şəhər sakini Malik Mirzəyevin hərbi xidmətdən qayıdan oğlu üçün məclis təşkil etdiyini aşkarlayıblar. Polis əməkdaşları tərəfindən M.Mirzəyev tərəfindən təşkil olunan məclis dayandırılıb. Ev sahibi və məclisdə iştirak edən şəxslər inzibati qaydada məsuliyyətə cəlb olunublar.

Koronavirus infeksiyasının kütləvi yayılmasının qarşısının alınması məqsədilə paytaxtda iri supermarketlər şəbəkələrində, apteklərdə və fəaliyyətinə icazə verilən digər qapalı məkanlarda, yollarda da gücləndirilmiş nəzarət-profilaktik tədbirləri davam etdirilir. İnsanların diqqətinə çatdırılır ki, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən, o cümlədən tibbi maskalardan istifadə etmələri vacibdir. Eləcə də fəaliyyətinə icazə verilən qapalı məkanlarda xidmət personallarından qaydalara əməl etmələri tələb olunur. Yoxlamalar zamanı müvafiq icazə olmadan yaşayış yerlərini tərk edənlər, eləcə də tənəffüs yollarını qoruyan fərdi vasitələrdən, o cümlədən tibbi maskalardan istifadə etməyən şəxslər aşkarlandıqda həmin şəxslərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə cərimə protokolu tərtib edilir.

Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş koronavirusun profilaktikasına dair metodiki göstərişlərin icrasına nəzarət məqsədilə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ictimai iaşə və qida məhsullarının ticarəti ilə məşğul olan sahibkarlıq subyektlərində reydlər davam etdirilir. Belə ki, AQTA əməkdaşları tərəfindən iyulun 11-də Bakıda, eləcə də regionlarda fəaliyyət göstərən 49 ictimai iaşə obyekti, 161 ərzaq satışı mağazası olmaqla, ümumilikdə 210 müəssisədə reyd keçirilib. Sahibkarlıq subyektlərinə qida təhlükəsizliyi sahəsində qanunvericiliyin tələbləri izah edilib, icrası məcburi göstərişlər və maarifləndirici tövsiyələr verilib.

Reyd keçirilən obyektlərdən 74-ündə Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş metodiki göstərişlərin tələblərindən irəli gələn bir sıra qaydalara əməl olunmaması və kobud şəkildə pozulması faktları aşkarlanıb. Aşkarlanmış faktlarla bağlı həmin müəssisələr barədə qanunvericiliyin tələbləri çərçivəsində inzibati tədbirlər görülüb.

Təəssüflə demək lazımdır ki, xəstəliyin yayılmasının başlıca səbəbi də məhz belə məsuliyyətsiz davranışlar, karantin qaydalarına əməl olunmamasıdır. Elə ona görə bəzi hallarda karantin rejimini pozanlara qarşı sərt addımlar atmaq məcburiyyəti yaranır. Bütün qaydalar insanların, o cümlədən karantin rejimini pozanların sağlamlığının qorunmasına hesablanıb. Mövcud qanunlar və karantin rejimi ilə bağlı tətbiq edilən qaydalar hər kəs üçün əsas olmalıdır. Qaydaları pozan insanlar daha məsuliyyətli davranıb nizam-intizama riayət etsələr, pandemiyanı nəzarətdə saxlamaq mümkün olacaq. Hazırda virusa qalib gəlməyin yeganə yolu məsuliyyətli davranmaq, karantin qaydalarına riayət etməkdir. Biz pozuntulara qarşı nə qədər barışmaz olsaq, ətrafımızdakı insanların biganəliyinə qarşı mübarizlik nümayiş etdirsək, bir o qədər tez və yaxşı nəticə əldə etməyə müvəffəq ola bilərik.

### Gündəlik yoluxma sayı sabitləşib

Sevindirici haldır ki, son zamanlar virusun mövcudluğuna inanmayanların sayı da azalıb. Hazırda vətəndaşlar özlərini virusdan qorumaq üçün daha məsuliyyətli davranır, qoyulan qaydalara daha diqqətli yanaşırlar. Artıq tibbi maskadan istifadə edənlərin də sayı çoxdur. Bu da öz müsbət nəticəsini verir. Bir müddət bundan əvvəl yoluxanların sürətlə artan sayı hazırda sabitləşib. Xəstəlikdən sağalanların sayında da artım var. Belə davam edərsə, yaxın zamanlarda gündəlik statistikanın azalacağına, sağalanların sayının artaraq yoluxanları üstələyəcəyinə ümid etmək olar.

Əhalinin bu cür həmrəylik nümayiş etdirməsi koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində dövlətin apardığı mübarizə ilə yanaşı olmalıdır. İndiki məqamda ən böyük vətənpərvərlik nümunəsi məhz dövlətin bütün çağırışlarına əməl etməkdir. Biz nə qədər həmrəy olub həm özümüz, həm də ətrafdakı insanlar, yaxınlarımız tərəfindən sadə qaydalara əməl etməyi təmin edə bilsək, bir o qədər tez bu vəziyyətdən çıxa biləcəyik və həyat öz adi axarına qayıdacaq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# COVID-19 sahəsində çalışan 115 kubalı tibb mütəxəssisi Azərbaycana gəlib





Prezident İlham Əliyevin Nazirlər Kabineti yanında Operativ Qərargaha göstərişinə uyğun olaraq, yeni növ koronavirusla mübarizə sahəsində çalışan daha bir qrup xarici mütəxəssis Azərbaycandadır.

AZƏRTAC xəbər verir ki, COVID-19 sahəsində çalışan 115 kubalı tibb mütəxəssisi iyulun 13-də Azərbaycana gəlib. Kubalı mütəxəssislər COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində ölkəmizə gəliblər.

Kubanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo jurnalistlərə müsahibəsində Azərbaycan və Kuba arasındakı münasibətlərin inkişafını qeyd edib. O bildirib ki, indiki zamanda Kuba özünə doğma hesab etdiyi Azərbaycana dəstəyini əsirgəmir. Bu səbəbdən Kubadan Azərbaycana böyük tibb personalı gəlib. Bu addım eyni zamanda həmrəyliyin göstəricisidir.

Kubadan gələn həkim briqadasının rəhbəri Deysi Torres Avela vurğulayıb ki, briqada pandemiyaya qarşı mübarizədə Kubanın təcrübəsini bölüşəcək. O, həmçinin əlavə edib ki, Azərbaycana reallaşan bu səfər humanizmin göstəricisidir. Vurğulayıb ki, kubalı tibb işçiləri azərbaycanlı həmkarları ilə birgə COVID-19-a qarşı mübarizə aparacaqlar.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Beynəlxalq əlaqələr və protokol şöbəsinin müdiri Ramin Ağayev bildirib ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın dəvəti ilə Kuba Respublikasının tibb işçilərindən ibarət böyük heyət Azərbaycanda pandemiyaya qarşı tədbirlərə cəlb olunublar. Bu heyət 3 ay müddətində Azərbaycanda olacaq.

Qeyd edək ki, ümumilikdə, Kubanın tibb mütəxəssisləri dünyanın 20-dən çox ölkəsində pandemiya ilə mübarizəyə dəstək göstərirlər.

# Azərbaycanda koronavirusa daha 529 yoluxma faktı qeydə alınıb, 547 nəfər sağalıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 529 yoluxma faktı qeydə alınıb, 547 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 7 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 24 min 570 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 15 min 640 nəfər müalicə olunaraq sağalıb, 313 nəfər vəfat edib. Aktiv xəstə sayı 8617 nəfərdir.

Ötən müddət ərzində 576 min 249 test aparılıb. Dünənki test sayı isə 8015-dir.

## "Azərişıq" ASC Ələt azad iqtisadi zonası ərazisində ilkin elektrik işlərinin layihələndirilməsi və aparılması işlərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

**LOT - 1.** Ələt azad iqtisadi zonası ərazisində ilkin elektrik işlərinin layihələndirilməsi və aparılması işlərinin satın alınması - 400 manat

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə. Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**"Azərişıq" ASC**
**Hesab №: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**VÖEN: 9900003611**
**Müxbir hesab №: AZ37NABZ01350100000000001944**
**Kod: 200189**
**SWIFT Code: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov, telefon: 440-39-93 daxili (23-71)

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

